HƏR BİR VƏTƏNDAŞ VERGİ ÖDƏMƏKDƏN ŞƏRƏF DUYMALIDIR

Vergilər



Biz bazar iqtisadiyyatını vergi yolu ilə tənzimləməliyik.

Heydər ƏLİYEV

№ 26 (766) ▪ 8 iyul 2015 | www.vergiler.az | Qiyməti: 40 qəp.

# Azərbaycan dövləti və xalqı bundan da böyük qələbələrə layiqdir

*Fransalı zadəgan Pier De Kubertinin təşəbbüsü ilə keçirilən ilk müasir Olimpiya Oyunlarının əsas məqsədi və hədəfi idman dəyərləri vasitəsilə dünya xalqlarını bir-birinə yaxınlaşdırmaq, onlar arasında sülh və dostluq münasibətlərini inkişaf etdirmək idi. Şübhəsiz, Olimpiada dünyanın ən güclü atletlərinin mübarizə meydanına çevrilən və xalqları bir araya gətirən ən mötəbər idman festivalıdır. Lakin 4 ildən bir il keçirilən bu Oyunlarla yanaşı, digər qitə miqyaslı idman yarışları da hər zaman atletlər arasında rəqabət və idman dəyərlərinin təbliği baxımından böyük əhəmiyyət kəsb edib.*




*«İnsani potensial, dövlətimizin iqtisadi qüdrəti, cəmiyyətdə hökm sürən xoş əhval-ruhiyyə, xalqla iqtidar arasındakı birlik, milli ideyalar ətrafında birləşməyimiz, milli həmrəylik – məhz budur bizim uğurlarımızın əsas şərtləri».*

İlham ƏLİYEV,
*Azərbaycan Respublikasının Prezidenti*

Müasir Olimpiya Oyunlarının keçirilməsindən sonra bütün qitələrdə multi-idman Oyunları təşkil edildi. Pan Amerika Oyunları 1951, Sakit Okean Hövzəsi Oyunları 1963, Afrika Oyunları 1965, Asiya Oyunları isə 1978-ci ildən keçirilir. Avropa isə digər kontinentlərdən bu sahədə geri qalırdı. Uzun illər idi ki, Avropanın idman ictimaiyyətində Oyunların keçirilməsi barədə ideya var idi, lakin bunu reallaşdırmaq mümkün olmurdu. Nəhayət, 2012-ci ilin dekabr ayında İtaliyanın paytaxtı Roma şəhərində keçirilən Avropa Olimpiya Komitələrinin İcraiyyə Komitəsinin 41-ci Baş Assambleyasında Avropa Oyunlarının keçirilməsi ilə bağlı qəti qərar verildi. Dünya Olimpiya hərəkatının fəal üzvlərindən olan Azərbaycan bu tarixi missiyanı öz üzərinə götürmək üçün namizədliyini irəli sürdü. Avropa Olimpiya Komitələrinin üzvlərinin böyük əksəriyyəti Bakı şəhərinin ev sahibliyini dəstəklədi.




İlk Avropa Oyunlarına hazırlıq prosesi cəmi 2 il 6 ay müddətinə yekunlaşmalı idi. Çoxları buna inanmasa da tezliklə şübhələr aradan qalxdı. Azərbaycan Respublikasının dövlət başçısı, Milli Olimpiya Komitəsinin prezidenti, həmçinin bu mötəbər idman tədbirinin bütün ağırlığını öz üzərinə götürən I Avropa Oyunları Təşkilat Komitəsinin sədri, ölkəmizin birinci xanımı Mehriban Əliyevanın gərgin əməyi və yüksək təşkilatçılıq qabiliyyəti nəticəsində bu missiyanın öhdəsindən şərəflə gələ bildik. Müstəqilliyinin bərpasından sonrakı dövr ərzində çoxlu sayda böyük uğurlara imza atan Azərbaycan Respublikası Avropada ilk dəfə keçirilən bu idman yarışlarını layiqincə təşkil etməklə öz tarixini daha bir möhtəşəm nailiyyətlə zənginləşdirdi. Respublikamız yüksək ev sahibliyi nümunəsini ortaya qoymaqla yanaşı, həm də sübut etdi ki, iradə, qətiyyət olan yerdə hər şey mümkündür.

...Əsas diqqət, ilk növbədə, idman infrastrukturunun inkişafı, yeni təsisatlar və mövcud olan qurğuların yenidən qurulmasına yönəldildi. Qeyd olunmalıdır ki, Oyunların keçirilməsi barədə verilən qərardan əvvəl də artıq Bakıda bir neçə möhtəşəm idman arenasının tikintisinə başlanmışdı. Beləliklə, 20 idman növü üzrə keçirilən yarışlar 5 yeni arena da daxil olmaqla, ümumilikdə 21 obyektdə təşkil edildi. Avropanın 50 ölkəsindən 6000-dən artıq atlet 253 dəst medal uğrunda mübarizə apardı. İlk dəfə keçirilməsinə baxmayaraq, Oyunlara maraq böyük idi. Rusiya, Türkiyə, Fransa, Böyük Britaniya, İtaliya, Polşa, İspaniya, Ukrayna və digər ölkələr ən geniş nümayəndə heyətləri ilə təmsil olunmaqla yanaşı, ən güclü atletlərini Bakıya göndərdilər. «Rio-2016» Yay Olimpiya Oyunlarına lisenziya imkanları da Avropa Oyunlarının əhəmiyyətini bir qədər artırırdı. İyunun 12-də Bakı Olimpiya Stadionunda keçirilən möhtəşəm açılış mərasimi bütün dünyanı heyrətləndirməklə yanaşı, Oyunların yüksək səviyyədə keçiriləcəyindən xəbər verirdi. 17 günlük idman festivalı nəinki Azərbaycan və Avropada, eləcə də bütün dünyada böyük əks-səda doğurdu. Bu həyəcanın ünvanı isə Odlar Yurdu Azərbaycan idi. 150-dən artıq televiziya kanalının canlı yayımladığı Oyunları planetin 1 milyarddan artıq tamaşaçısı izlədi.

Beləliklə, «Bakı -2015» brendi gələcək Olimpiya Oyunları üçün bir nümunəyə çevrildi. Təkcə bir faktı demək kifayətdir ki, dünya idman tarixində ilk dəfə olaraq, I Avropa Oyunlarında gimnastikanın 6 növü üzrə yarışlar eyni məkanda və eyni vaxtda keçirildi. Avropa Oyunlarının ən böyük töhfəsi isə yeni tamaşaçı mədəniyyəti və ənənəsinin əsasının qoyulması oldu. Oyunlarda arenalarda tamaşaçı iştirakı rekord göstəricilərə çatdı.

Avropa Oyunları kimi mötəbər yarışa ev sahibliyi etməsi Azərbaycanın insan kapitalı mirasını da ortaya qoydu. Oyunların Əməliyyat Komitəsində çalışan işçi heyətin əksəriyyəti azərbaycanlılar idi, onların əcnəbilərlə əməkdaşlıqdan əldə etdiyi əvəzolunmaz təcrübə, bilik və bacarıqlarının təkmilləşdirilməsi gələcəkdə ölkəmizdə keçiriləcək bu qəbildən olan idman tədbirlərinin təşkilinə böyük töhfə olacaq. 20 minə yaxın könüllünün Oyunlara cəlb olunması yeni ənənənin əsasını qoydu.

...Avropa Oyunları ərzində Azərbaycan cəmiyyəti bir daha öz birliyini nümayiş etdirdi. Müəyyən xarici dairələrin təpkisi sərtləşdikcə insanlar öz liderinin - Prezident İlham Əliyevin ətrafında daha sıx birləşdilər. Əslində, yarışların keçirildiyi günlər həm də xalq-hakimiyyət vəhdətinin təcəssümünə çevrildi. Məhz bu səbəbdən, Avropa Oyunlarına kölgə salmağa cəhd edən dairələrin çirkin niyyətləri puç oldu və idman dəyərlərinin möhtəşəm zəfəri yaşandı.

Təbii ki, «Bakı-2015» ilk Avropa Oyunlarında Azərbaycan idmançılarının inanılmaz nailiyyəti sevincimizə sevinc qatdı. 21-i qızıl, 15-i gümüş, 20-si bürünc olmaqla 56 medala yiyələnən millimiz yalnız Rusiyadan geri qaldı. Atletlərimiz Böyük Britaniya, Almaniya, Fransa, İtaliya, Türkiyə kimi idman sahəsində böyük ənənələri olan ölkələri qabaqlamaqla tarixi bir zəfərə imza atdılar. Əlbəttə ki, bu göstəricilərin arxasında illərlə görülən işlər, dövlətin idmana hərtərəfli qayğısı, qoyulan irihəcmli investisiyalar durur. Bu göstəricilər bir daha açıq şəkildə təsdiq edir ki, Azərbaycan Avropanın hegemon idman dövlətinə çevrilməkdədir.

Bu Oyunlar, həmçinin, Azərbaycana özünü dünyaya daha geniş tanıtmaq imkanı da yaratdı. Möhtəşəm açılış və bağlanış mərasimləri mədəniyyətimizin, tariximizin, milli ornamentlərimizin dünyaya çatdırılması üçün yaxşı bir tribuna oldu. Dünyanın dörd bir yanında gerçəkləşən canlı yayımlarda Bakının gözəlliyindən, füsunkarlığından danışıldı. Muğamımız, xüsusi fərqləndirilmə ilə «Qarabağ şikəstəsi», «Sarı gəlin», düşmənlərimizin ələ keçirməyə çalışdıqları kamanımız, Simurq quşu əfsanəmiz canlandırıldı, lazımi ünvanlara mesajlar çatdırıldı. Bundan əlavə, ölkəmizdə əsrlərlə mövcud olan tolerantlıq, qonaqpərvərlik də bu Oyunlarla bir daha test edildi. Bir daha təsdiqləndi ki, insanlarımızın bu müsbət xüsusiyyətlərinə görə dünyada tayı-bərabəri yoxdur.

Bütün bunları ümumiləşdirsək, artıq başa çatmış ilk Avropa Oyunları Azərbaycan üçün bir qürur mənbəyi və gələcək üçün vizit kartıdır. Bu Oyunları keçirməklə biz özümüzə olan inamı artırdıq, idman infrastrukturumuza investisiya qoyduq, ölkəmizin təbliği ilə ciddi şəkildə məşğul olduq, həm də böyük bir təcrübə topladıq. Bu təcrübə bizə 2024-cü ildə keçiriləcək Yay Olimpiya Oyunlarına ev sahibliyi etmək üçün əlavə imkanlar aça bilər. Yaxın gələcəkdə Bakıda Şahmat Olimpiadası, İslam Həmrəylik Oyunları, Futbol üzrə Avropa Çempionatının oyunlarının keçiriləcəyini də nəzərə almaqla demək olar ki, Azərbaycan böyük idman tədbirlərinin keçirildiyi etibarlı bir məkana çevrilməkdədir.

Bizə isə bu uğurlardan qürur duymaq və xalqımıza daha böyük layihələrə imza atmağı arzulamaq qalır. Azərbaycan bundan da böyük qələbələrə layiqdir...



2 Vergilər naziri Qazaxda vətəndaşları qəbul edib
3 Müasir Azərbaycan iqtisadiyyatının əsas təmayülləri
4 İnsan kapitalına daha çox vəsait cəlb olunacaq
5 Gənclərin sahibkarlıq fəaliyyəti stimullaşdırılır

# Vergilər naziri Fazil Məmmədov Qazaxda vətəndaşları qəbul edib

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin tapşırıq və tövsiyələrinə uyğun olaraq, mərkəzi icra hakimiyyəti orqanlarının rəhbərləri bölgələrdə vətəndaşları qəbul edir, onların qarşılaşdıqları problemlərin həllinə köməklik göstərirlər.*

İyul ayının 3-də vergilər naziri, birinci dərəcəli dövlət vergi xidməti müşaviri Fazil Məmmədov Qazax şəhərində Qazax, Ağstafa və Tovuz rayonlarından olan vətəndaşları qəbul etmişdir. Qəbulda vergilərin hesablanması, ödənilməsi, nəzarət-kassa aparatlarının tətbiqi, POS-terminalların quraşdırılması, əmək müqavilələrinin bağlanması, vergi borcları, vergi nəzarəti tədbirləri sahəsində sahibkarların qarşılaşdıqları problemlər, əməkhaqqı fondundan ödənilən icbari ödənişlər, vergi ödəyicilərinə göstərilən xidmətlər, vergi orqanlarına işə qəbul, yerli (bələdiyyə) vergilərin toplanması prosesində rast gəlinən müxtəlif çətinliklər və digər məsələlərlə bağlı vətəndaşların müraciətlərinə baxılmışdır.

Qaldırılan problemlərin əksəriyyəti yerindəcə həll olunmuş, müraciətlərin bir qismi nəzarətə götürülmüş, digərlərinin araşdırılması və lazımi tədbirlərin görülməsi ilə bağlı müvafiq tapşırıqlar verilmişdir.

Qəbula gələn vətəndaşlar onlar üçün yaradılmış bu imkandan razılıqlarını bildirmişlər.



# Operativ nəzarət tədbirləri

2015-ci ilin iyun ayı ərzində əhali ilə nağd pul hesablaşmalarının aparılması qaydalarına riayət olunması, nəzarət-kassa aparatlarından istifadə, vergi orqanlarında uçota durmadan fəaliyyət göstərən vergi ödəyicilərinin aşkarlanması və s. kimi operativ nəzarətin əhatə funksiyalarına daxil olan məsələlər üzrə vergi orqanları tərəfindən keçirilmiş tədbirlər zamanı 6119 vergi ödəyicisində qanunvericiliyin pozulması faktları aşkarlanmışdır.

Araşdırmalar zamanı 1458 vergi ödəyicisi tərəfindən qanunla nəzərdə tutulmayan valyutanın ödəniş vasitəsi kimi qəbul olunduğu, valyutanın ticarət, iaşə və xidmət müəssisələrində qanunsuz alınıb-satıldığı və ya dəyişdirildiyi, 271 vergi ödəyicisinin vergi orqanlarında uçota durmadan fəaliyyət göstərdiyi, 1080 vergi ödəyicisinin xüsusi razılıq (lisenziya) tələb olunan fəaliyyət növləri ilə razılıq (lisenziya) almadan məşğul olduğu müəyyən edilmişdir. 487 vergi ödəyicisi tərəfindən 772 nəfər fiziki şəxsin əmək müqaviləsi bağlamadan işə cəlb edildiyi, 372 vergi ödəyicisi tərəfindən fərqlənmə nişanı olmadan avtomobil nəqliyyatı ilə sərnişin daşındığı, 87 vergi ödəyicisində aksiz markaları ilə müvafiq qaydada markalanmamış mallar olduğu aşkarlanmışdır.

Aşkar edilmiş nöqsanlarla bağlı müvafiq tədbirlər görülmüşdür.

# Elektron ticarətdə vergidən yayınma ilə bağlı problemlər müzakirə olunub

Macarıstan Respublikasının paytaxtı Budapeşt şəhərində Avropadaxili Vergi Administrasiyaları Təşkilatının (IOTA) təşəbbüsü ilə «Elektron ticarət sahəsində vergidən yayınmaya qarşı mübarizədə inzibati əməkdaşlıq və informasiya mübadiləsinin rolu» mövzusunda seminar keçirilmişdir.

Seminarda bu sahədə inzibati əməkdaşlığın hüquqi tərəfləri ilə yanaşı, mövcud rəsmi və qeyri-rəsmi yollar, o cümlədən administrasiyalar arasında məlumat mübadiləsinin hüquqi və texniki tərəfləri əsas müzakirə obyekti olmuşdur. Mövzu ilə bağlı təqdimatlar olunmuş, elektron ticarətdə məlumat mübadiləsi, mübadilənin metodları və hüquqi çərçivələri barədə Avstriya, İsveçrə və Belçika təcrübələri bölüşülmüşdür.

Seminarda Vergilər Nazirliyinin Vergi siyasəti və strateji araşdırmalar Baş İdarəsinin Strateji araşdırmalar idarəsinin rəisi Telman Hüseynli və Beynəlxalq münasibətlər idarəsinin Beynəlxalq təcrübələr və innovasiyalar şöbəsinin baş dövlət vergi müfəttişi Ceyhun İsmayılov iştirak etmişlər.

# Vergi hüquqpozmalarına qarşı tədbirlər gücləndirilir

*2015-ci ilin 1-ci yarısında Vergilər Nazirliyi yanında Vergi Cinayətlərinin İbtidai Araşdırılması Departamentində vergi ödəməkdən yayınma və qanunsuz sahibkarlıq fəaliyyəti ilə məşğul olma faktları üzrə ümumilikdə 998 cinayət işi başlanmışdır.*

Bunlardan 203-ü vergi ödəməkdən yayınma və qanunsuz sahibkarlıq (134-ü külli miqdarda gəlir əldə etməklə vergidən yayınma) faktları ilə bağlı səyyar vergi yoxlamalarının nəticələrinə dair, 769-u vergi borcunun ödənilməməsi, 25-i operativ vergi nəzarəti tədbirlərinin nəticələrinə dair vergi orqanlarından daxil olmuş materiallar əsasında, 1-i isə qanunsuz sahibkarlıq faktı ilə bağlı digər hüquq-mühafizə orqanından daxil olmuş materiallar üzrə başlanmışdır.

İlin ilk altı ayı ərazində Departamentdə cinayət işləri və materiallar üzrə aparılan araşdırmalar zamanı 26 milyon 366,9 min manat (2014-cü ilin eyni dövrü ilə müqayisədə 4,8 dəfə çox) vəsaitin dövlət büdcəsinə ödənilməsi təmin edilmişdir. İstintaqı tamamlanmış 71 cinayət işi üzrə 83 şəxs barəsində ittiham aktı aidiyyəti üzrə baxılması üçün məhkəmələrə göndərilmişdir.

Departamentin İstintaq idarəsində 385 cinayət işi üzrə (2014-cü ilin eyni dövrü ilə müqayisədə 2 dəfədən çox) ibtidai istintaq tamamlanmış, 37 nəfər təqsirləndirilən şəxs barəsində həbs qətimkan tədbiri seçilmişdir. İcraatına xitam verilmiş 314 cinayət işindən 273-ü üzrə müəssisələrin rəhbərləri və fiziki şəxslər yayındırdıqları vergiləri (44 iş üzrə külli miqdarda yayındırılmış vergi) ibtidai istintaq zamanı tamamilə ödədiklərinə görə, barələrində müvafiq qərarlar qəbul edilmişdir.

Cinayət işləri üzrə keçirilmiş istintaq-əməliyyat tədbirləri nəticəsində vergi cinayətləri törətdiklərinə görə barələrində axtarış elan edilmiş 24 nəfər şəxs tutularaq Departamentin İstintaq idarəsinə təhvil verilmiş, ibtidai istintaqdan yayınan 164 şəxsin məcburi qaydada gətirilməsi, 192 şəxsin tapılaraq istintaqa gəlmələri, 218 şəxsin yerinin müəyyən olunaraq istintaqa məlumat verilməsi təmin edilmişdir.

Vergi orqanlarının üzərinə düşən vəzifələrin icrasına kömək göstərilməsi ilə bağlı müraciətlərə baxılması nəticəsində vergi yoxlamalarından, əmlakının siyahıya alınmasından yayınan və bəyannamə təqdim etməyən 149 nəfər vergi ödəyicisi tapılaraq müvafiq vergi orqanlarına gəlmələri təmin olunmuşdur.

# Elektron imzadan istifadə edənlərin sayı durmadan artır

*Ölkə qanunvericiliyinə əsasən, e-imza ilə imzalanmış elektron sənədlər əl ilə imzalanmış və möhürlənmiş sənədlərə bərabər tutulur. Elektron imza ölkəmiz üçün yeni imza vasitəsi olmasına baxmayaraq, bununla bağlı sertifikat əldə edənlərin sayı gündən-günə çoxalır.*

Milli Sertifikatlar Xidmətləri Mərkəzinin məlumatına görə, bu ilin birinci rübü də daxil olmaqla, verilən elektron imza sertifikatlarının sayı 32382 olub: bunun 19769-u «Dövlət hakimiyyəti orqanları», 5367-si «Hüquqi şəxs», 7264-ü isə «Vətəndaş» sertifikatlarıdır.

***Sertifikatı necə əldə etməli...***

Elektron imza sertifikatı əldə etmək üçün hər bir vətəndaş şəxsiyyət vəsiqəsi ilə Qeydiyyat Mərkəzinə müraciət edir və mərkəzdə vətəndaşın adına ərizə formalaşdırılır. Bunun üçün müraciət edən fiziki şəxs olduqda imza sahibinin şəxsiyyətini təsdiq edən sənədin surəti; onun adından çıxış etmək səlahiyyəti olan şəxsə verilən etibarnamə və ödəniş qəbzi tələb olunur.

Hüquqi şəxslərdən isə aşağıdakılar tələb olunur:

- hüquqi şəxslərin ölkə qanunvericiliyinə uyğun qeydiyyatdan keçməsini təsdiq edən sənədlərin notarial qaydada təsdiq olunmuş surətləri;
- hüquqi şəxs və ya onun adından fəaliyyət göstərən səlahiyyətli nümayəndəyə verilən etibarnamə və həmin nümayəndənin şəxsiyyətini təsdiq edən sənədin əsli və surəti;
- hüquqi şəxsin bank rekvizitləri haqqında rəsmi arayış və ya rəsmi məktub;
- e-imza sertifikatının alınmasına müraciət olunan işçilərin hüquqi şəxs tərəfindən təsdiq olunmuş siyahısı və həmin işçilərin şəxsiyyət vəsiqələrinin surəti;
- elektron imza sertifikatı alacaq rəhbər şəxsin tutduğu vəzifəni təsdiq edən əmrdən çıxarış;
- rəhbər şəxsin möhürünü təsdiq edən sənəd.

Dövlət qurumları üçün isə tələb olunan sənədlər bunlardır:

- təşkilatın ölkə qanunvericiliyinə uyğun qeydiyyatdan keçməsini təsdiq edən sənədlərin surəti;
- rəhbər şəxs tərəfindən onun adından fəaliyyət göstərəcək səlahiyyətli nümayəndəyə verilən etibarnamə və həmin nümayəndənin şəxsiyyətini təsdiq edən sənədin əsli və surəti;
- təşkilatın bank rekvizitləri haqqında rəsmi arayış və ya rəsmi məktub;
- e-imza sertifikatının alınmasına müraciət olunan işçilərin rəhbər şəxs tərəfindən təsdiq edilmiş siyahısı və həmin işçilərin şəxsiyyət vəsiqələrinin surətləri;
- elektron imza sertifikatı alacaq rəhbər şəxsin tutduğu vəzifəni təsdiq edən əmrdən çıxarış;
- rəhbər şəxsin möhürünü təsdiq edən sənəd.

***Sertifikat almaq üçün onlayn müraciət***

Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin Məlumat Hesablama Mərkəzi (MHM) tərəfindən hazırlanan elektron ərizə proqramı vasitəsilə istənilən vətəndaş internet üzərindən (www.e-imza.az) elektron ərizə formasındakı suallara cavab verməklə və onlayn qaydada ödəniş etməklə elektron imza kartı sifariş edə bilər. Sifariş MHM-ə daxil olan kimi elektron imza sertifikatı hazırlanır və bu barədə vətəndaşa elektron poçt və telefon vasitəsilə məlumat verilir. Sertifikatının hazır olması barədə məlumat bildirişi almış şəxs MHM-də qeydiyyat mərkəzinə yaxınlaşıb şəxsiyyət vəsiqəsini təqdim edərək elektron imza sertifikatını ala bilər.

Elektron imza sertifikatı almaq üçün e-ərizə ilə müraciət vaxtın səmərəli istifadə olunması, yarana biləcək növbələrdə vaxt itirməmək və rahatlıq məqsədilə nəzərdə tutulub: vətəndaş hər hansı qeydiyyat mərkəzinə getmədən birbaşa internet üzərindən müraciət edə bilir.

E-imza sertifikatlarının qiyməti fiziki şəxslər üçün 36, dövlət qurumları üçün 80, hüquqi şəxslər üçün 72 manatdır. Hüquqi və sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki şəxslər üçün kartoxuyan qurğunun qiyməti 15 manatdır. Qeyd edək ki, bu qurğu olmadan e-imza kartından istifadə mümkünsüzdür. Sertifikatlar üç il müddətinə verilir.

Onu da əlavə edək ki, e-imza kartı itdikdə, yaxud pin-kod unudulduqda, vətəndaşlar müştərilərə xidmət üçün Zəng Mərkəzi (157) ilə əlaqə yaratmalıdırlar. Müraciətdən sonra kartda olan məlumatlar bloka salınacaq və onların qüvvəsi dayanacaq.

**AYTƏN**

# Azərbaycan brendləri yaradılacaq

Azərbaycanda İxracın və İnvestisiyaların Təşviqi Fondu «Xarici investisiyalar və qeyri-neft ixracının təşviqi strategiyası (2015-2020)» layihəsini ictimai müzakirəyə çıxarıb. Azərbaycan Prezidentinə təqdim ediləcək strategiya layihəsində ölkəyə xarici investisiyaların cəlb olunması, coğrafi yerləşmə və brendləşmə, səriştəli kadrların və xarici bazarların mövcudluğu kimi üstünlüklər nəzərə alınıb.

Sənəddə idxalı əvəz edəcək və eyni zamanda ixracyönümlü potensiala malik ənənəvi iqtisadi fəaliyyət növlərinə və yüksək texnologiyalara əsaslanan istehsal sahələrinə birbaşa xarici investisiyaların cəlb olunması prioritet hesab edilir. Ənənəvi iqtisadi fəaliyyət növlərinə kənd təsərrüfatı, qida məhsullarının istehsalı, turizm sənayesi, maşın və avadanlıqların istehsalı, elektrik avadanlıqlarının istehsalı, kompüter, elektron və optik məhsulların istehsalı, kimya sənayesi, tikinti materiallarının istehsalı, metallurgiya sənayesi, toxuculuq sənayesi və geyim istehsalı, dəri və dəri məmulatları, ayaqqabı istehsalı, nəqliyyat və logistika daxildir. Yüksək texnologiyalara əsaslanan istehsal sahələri isə əczaçılıq sənayesini, biotexnologiyaları, nanotexnologiyaları, informasiya və kommunikasiya texnologiyalarını, kosmik sənayeni, alternativ və bərpa olunan enerji mənbələri hesabına enerji istehsalını, sənaye parklarını, ərazi klasterləri və sənaye məhəllələrini əhatə edir.

Strategiya layihəsində ixracın təşviq edilməsi üçün 2015-2020-ci illər ərzində müəssisələrdə istehsal prosesinin qabaqcıl texnologiyalar əsasında təşkilinin dəstəklənməsi, müvafiq beynəlxalq standartlara uyğun ekoloji təmiz kənd təsərrüfatı və ərzaq məhsullarının istehsalının stimullaşdırılması, eləcə də elm-təhsil-biznes əməkdaşlığının təşviqi, ölkədən xarici bazarlara yüksək keyfiyyətli və rəqabət qabiliyyətli məhsulların ixracını təmin etmək məqsədilə keyfiyyət infrastrukturunun təkmilləşdirilməsi nəzərdə tutulur. Azərbaycanda istehsal olunan məhsulların xarici bazarlara çatdırılmasının asanlaşdırılması, nəqliyyat xərclərinin azaldılması və təchizatın müntəzəmliyini, habelə yerli məhsulların xarici bazarlarda rəqabətə davamlılığını təmin etmək məqsədilə Azərbaycanda və xarici bazarlarda logistik mərkəzlərin təşkilinin dəstəklənməsi, ixracatçı birlik və assosiasiyaların yaradılmasının təşviqi nəzərdə tutulub.

Milli brendlər və marketinq üzrə konsepsiyanın hazırlanması, coğrafi (məsələn, «Azərbaycan məhsulu»), sahəvi (məsələn, «Azərbaycan meyvəsi») və mədəni (məsələn, «Azərbaycan mətbəxi») brendləşmənin yaradılması və dəstəklənməsi, xarici bazarlarda Azərbaycan məhsullarının brendləşdirilməsi üçün yeni bilik və texnologiyaların işlənilməsi və tətbiqi məqsədilə brendləşmə sahəsində tədqiqat işlərinin aparılması, yerli brendlərin xarici ölkələrdə təşviqi üçün qabaqcıl beynəlxalq təcrübə əsasında xarici bazarlarda brendləşdirməyə dəstək mexanizminin yaradılması, xarici bazarlarda yerli brendlərin hüquqlarının qorunması mexanizminin yaradılması da diqqət mərkəzində olacaq.

Əsas hədəf kimi bazarlara mal ixracının miqdar və struktur üzrə genişləndirilməsi və yeni bazarlara çıxışın təmin edilməsi, Azərbaycanda istehsal olunmuş məhsulların təşviqi məqsədilə xarici bazarlarda ticarət evlərinin yaradılması planlaşdırılır. Qeyri-neft ixracının təşviqində Azərbaycanın quru, dəniz və hava məkanı vasitəsilə xarici bazarlarda təqdim etdiyi iş və xidmətlərin təşviqi üzrə tədbirlərin həyata keçirilməsi, ölkə daxilində və xarici bazarlarda ixracyönümlü tədbirlərin, o cümlədən ixrac missiyalarının təşkili, ixracatçıların ixracyönümlü tədbirlərdə, o cümlədən sərgilərdə iştirakının dəstəklənməsi məqsədilə qabaqcıl beynəlxalq təcrübəyə əsaslanan maliyyə və təşkilati dəstək mexanizmi yaradılacaq. Xarici bazarlar, bu bazarlara daxil olmaq üçün zəruri olan sənədlər və ixracla bağlı digər məsələlər üzrə araşdırmaların aparılması və sahibkarların maarifləndirilməsi fəaliyyətlərinin dəstəklənməsi, Azərbaycanda istehsal olunmuş məhsulların ixrac coğrafiyasının genişləndirilməsi üçün yerli istehsalçılarla xarici idxalçılar arasında kommersiya əlaqələrinin qurulması və yerində istehsalla tanış olunması məqsədilə potensial idxalçı missiyalarının təşkil edilməsi, beynəlxalq KİV-lər vasitəsilə təşviqat aparılması və ixrac üzrə məlumat portalının yaradılması planlaşdırılır.

Qarşıdakı illərdə qabaqcıl beynəlxalq təcrübəyə əsaslanan ixracın maliyyələşdirilməsi və sığortası mexanizminin yaradılması, ixracla bağlı vaxt və maliyyə xərclərini azaltmaq üçün ixrac prosedurlarının sadələşdirilməsi, regionlarda sahibkarlıq subyektlərinə, xüsusilə kiçik və orta sahibkarlıq subyektlərinə ixracla bağlı məsləhət xidmətlərinin və təlim proqramlarının təşkili məqsədilə ixraca dəstək mərkəzlərinin yaradılması, ixrac əməliyyatları aparan sahibkarlıq subyektləri üçün həvəsləndirici tədbirlərin keçirilməsi nəzərdə tutulub.

Ölkənin qeyri-neft sektoruna yerli və xarici investisiyaların cəlb edilməsinin intensivləşdirilməsi məqsədilə stimullaşdırıcı mexanizmlər tətbiq olunacaq, qeyri-neft sektorunun inkişafına xidmət edən və müasir tələblərə cavab verən istehsal infrastrukturunun genişləndirilməsi üçün birbaşa xarici investisiyalar cəlb ediləcək, qeyri-neft ixracı adambaşına 1000 ABŞ dollarına çatdırılacaq.

İki mərhələdə - 2015-2017 və 2018-2020-ci illərdə həyata keçirilməsi nəzərdə tutulan strategiyanın hər mərhələ üzrə fəaliyyət planı hazırlanacaq və bu məqsədlə yerli mütəxəssislərlə yanaşı, beynəlxalq ekspertlər də cəlb olunacaq.

Strategiyanın həyata keçirilməsində qarşıya qoyulan başlıca məqsəd Azərbaycanda biznes mühiti və iqtisadiyyatın rəqabətqabiliyyətliliyi göstəricisi üzrə qabaqcıl ölkələr sırasına daxil olmasını təmin etməkdir.

**R.SADIQOV**

# Müasir Azərbaycan iqtisadiyyatının əsas təmayülləri



*Milli Məclisin deputatı, İqtisadi və Sosial İnnovasiyalar İnstitutunun rəhbəri Əli Məsimli ilə müsahibə*

***- Əli müəllim, dünya iqtisadiyyatında ciddi sarsıntılar gedən bir dövrdə Azərbaycan iqtisadiyyatına «kənardan» verilən qiymətlər nikbindir. Beynəlxalq maliyyə qurumlarının hesabatlarında Azərbaycan iqtisadiyyatının müsbət qiymətləndirilməsinin başlıca amili nədir?***

- Azərbaycan iqtisadiyyatı sürətlə inkişaf edən iqtisadiyyatlar sırasındadır. Uzun müddətdir ki, dövlət büdcəsində kritik səviyyədə kəsir müşahidə olunmur. Yəqin ki, 2015-ci ildə də dövlət büdcəsinin kəsiri məqbul hesab edilən həddi aşmayacaq. Hazırda xarici dövlət borcumuz ÜDM-in 10 faizindən aşağıdır. Dövlət büdcəsindən xarici borclara çəkilən xərclər büdcə xərclərinin 1 faizindən də azdır. 50 milyard dollara qədər valyuta ehtiyatımız var. Ona görə də beynəlxalq maliyyə qurumlarının hesabatlarında MDB məkanının əksər ölkələri ilə müqayisədə Azərbaycan iqtisadiyyatı daha çox müsbət tərəfdən xarakterizə olunur. Buna baxmayaraq, təbii ki, müəyyən sahələrdə islahatlar da qaçılmazdır.

***- Manatın devalvasiyasının təsirləri ilə bağlı ölkədə bank sektorunun vəziyyətini necə dəyərləndirmək olar?***

- Ümumiyyətlə, Azərbaycanda bankların vəziyyəti orta qiymətləndirilə bilər. 10 bal sistemi ilə götürəndə durumu 2-4 bal səviyyəsində olan banklar da var, fəaliyyətini 6-8 bal səviyyəsinə qaldıra bilən banklar da. Vəziyyəti yaxşı olmayan bankların işi manatın devalvasiyasından sonra getdikcə çətinləşir. Aldığı borcları vaxtında qaytarmaq iqtidarında olmayan müştərilərin və problemli kreditlərin həcmi artır. Ötən illə müqayisədə bu ilin ortalarına maliyyə vəziyyəti pis hesab olunan bankların sayı 4-dən 11-ə çatıb.

***- Bankların birləşdirilməsi məsələsi gündəmdədir. Bu addımın atılması məsələni həll edə bilərmi?***

- Əgər söhbət bankların mexaniki surətdə birləşdirilməsindən gedirsə, belə birləşmə məsələni müsbət həll etməyəcək. Çünki bir neçə problemli bankın mexaniki surətdə birləşməsi vəziyyətdən çıxış yolu deyil, sadəcə, həmin problemli bankların problemlərinin birləşdirilməsi deməkdir. Əgər bankların səmərəli birləşdirilməsindən danışırıqsa, bu addım islahatlar kontekstində atılmalı və həmin banklara dair sağlamlaşdırma proqramı hazırlanıb həyata keçirilməlidir.

***- 2016-cı ilin dövlət büdcəsində hansı dəyişikliklər ola bilər?***

- Gələn ilin dövlət büdcəsi xeyli dərəcədə 2015-ci ilin büdcəsinin məntiqi davamı olacaq. Ona görə də bu sualı cavablandırmaqdan ötrü büdcənin əsas məqamlarına diqqət yetirmək lazımdır. 2015-ci ildə 19,4 milyard manatlıq büdcə gəlirlərinin 10,4 milyard manatı və ya 53 faizindən çoxu Neft Fondundan transfertin payına düşəcək. Yəni dünya bazarında neftin qiymətinin hansı səviyyədə olmasından asılı olmayaraq, Neft Fondundan transfert qarantiya olunmuş məbləğdir. Həmin məbləğ 2015-ci ilin büdcəsinin müdafiə olunan xərc maddələrini örtmək üçün yetərli olduğundan, neftin qiymətindən asılı olmayaraq, bu il hökumət təkcə Dövlət Neft Fondundan transfertlər hesabına büdcə çərçivəsində götürdüyü sosial öhdəlikləri yerinə yetirə biləcək. Yəni dövlət sektorunda çalışanların əməkhaqlarının verilməsində, eləcə də pensiya və digər ödənişlərin reallaşmasında problem olmayacaq. 2016-cı ilin dövlət büdcəsində də bu vacib prinsip qorunub saxlanılacaq.

*2015-ci ilin dövlət büdcəsinin gəlirlərinin 4,8 milyard manatı və ya 25 faizi Vergilər Nazirliyinin xətti ilə qeyri-neft sektorundan daxilolmalar kimi nəzərdə tutulub*

2015-ci ilin dövlət büdcəsinin gəlirlərinin 4,8 milyard manatı və ya 25 faizi Vergilər Nazirliyinin xətti ilə qeyri-neft sektorundan daxilolmalar kimi nəzərdə tutulub. Büdcə gəlirlərinin 1,6 milyard manatı və ya büdcə gəlirlərinin 8 faizindən çoxu Dövlət Gömrük Komitəsi xətti ilə formalaşacaq. Vergilər Nazirliyinin xətti ilə neft sektorundan daxilolmalar isə 2,3 milyard manat və ya büdcə gəlirlərinin 12 faizə yaxınını təşkil edəcək. Deməli, neftin qiymətinin aşağı düşməsi dövlət büdcəsinin gəlirlərinin 88 faizə qədər hissəsinə birbaşa yox, dolayısı ilə, 12 faizlik və ya 2,3 milyard manatlıq hissəsinə isə birbaşa təsir göstərəcək. Bu halda, əgər 2015-ci ildə neftin qiyməti orta hesabla 60 dollar ətrafında olarsa, onda manatın devalvasiyasının nəticələrini nəzərə almadan büdcəyə 800 milyon manat, yəni büdcə gəlirlərinin 4 faizi məbləğində az vəsait daxil olacaq. Amma işlər düzgün təşkil olunsa, manatın 21 fevral 2015-ci il tarixdə baş verən devalvasiyası nəticəsində qiymətlərin dəyişməsinin multiplikativ effekti kimi büdcəyə xeyli əlavə vəsait daxil ola bilər. 2016-cı ilin büdcəsində bu, qeyri-neft sektorundan dövlət büdcəsinə daxilolmaların həcminin artmasında özünü göstərəcək.

Azərbaycanın 2016-cı il üzrə dövlət büdcəsinin ilkin parametrləri üzərində işlər gedir. 2015-ci ilin büdcəsində qarşılanan problemlərin gələn il də təkrar olunmaması üçün yəqin ki, bir sıra dəyişikliklər olacaq. Hökumət 2016-cı ilin dövlət büdcəsində bir barel neftin qiymətini ilkin variant kimi 50 dollar götürmək fikrindədir. Neftin qiymətinin hazırkı səviyyəsində neft hasil edən ölkələr, o cümlədən Azərbaycan maliyyə itkiləri baxımından ziyan çəkir, neft istehlak edən ölkələrdə isə iqtisadi fəallıq artır. Ona görə də hadisələrin gedişi diktə edir ki, biz də bundan sonra neftin aşağı qiymətləri şəraitində yaşamağı, işləməyi və inkişaf etməyi öyrənək.

***- Sizcə, özəl sektorun inkişafı istiqamətində nə kimi addımların atılmasına ehtiyac var?***

- Azərbaycanda özəl sektorun inkişafı üçün xeyli iş görülüb, bir sıra mühüm qanunlar və proqramlar qəbul olunub. Sahibkarlığa Kömək Milli Fondunun xətti ilə sahibkarlara güzəştli şərtlərlə 1 milyard 200 milyon manat kredit verilib. Bununla belə, bu sahədə görülməsi vacib olan işlər də yetərincədir. Ölkədə 200 mindən artıq kiçik sahibkarlıq subyektinin, o cümlədən 14 mindən çox kiçik müəssisənin fəaliyyət göstərməsinə baxmayaraq, hələlik Azərbaycanda istehsal olunan məhsulda kiçik biznesin xüsusi çəkisi, eləcə də qabaqcıl texnika və texnologiyanın istehsala tətbiqi və sair bu cür mühüm göstəricilər üzrə kiçik və orta sahibkarlığın payı sosial-iqtisadi tərəqqiyə güclü təkan vermək üçün yetərincə deyil. Bunun bir sıra obyektiv və subyektiv səbəbləri var. Biz sahibkarlığın inkişafı üçün Rəqabət Məcəlləsini qəbul etməliyik. Yəni azad sahibkarlığın qarşısında duran maneələrin aradan qaldırılması, inhisarçılığa, korrupsiyaya qarşı mübarizənin gücləndirilməsi istiqamətlərində təsirli tədbirlər görülməlidir.

***- 2015-ci il «Kənd təsərrüfatı ili» elan olunub. Dövlət tərəfindən aqrar sahənin inkişafı istiqamətində ciddi addımlar atılır. Ümumiyyətlə, kənd təsərrüfatının bugünkü iqtisadi proseslərdəki yerini necə səciyyələndirmək olar?***

- Kənd təsərrüfatı Azərbaycan iqtisadiyyatının sənayedən sonra ikinci mühüm sahəsidir. İqtisadiyyatda məşğul olan 4,6 milyon nəfər əhalinin 1,7 milyon nəfərə yaxını və ya 37 faizi kənd təsərrüfatında çalışır. Bu gün torpaq vergisi istisna olmaqla, Azərbaycan kəndlisi bütün digər vergiləri ödəməkdən azaddır. Fermerlərə yanacaq, motor yağı və gübrələr güzəştli şərtlərlə satılır. Taxıl əkinlərinə görə subsidiya prioritet təşkil edir. Ölkədə həyata keçirilən aqrar islahatlar nəticəsində kənd təsərrüfatı məhsulları istehsalında özəl bölmənin xüsusi çəkisi 99,7 faizə yüksəlmişdir. Bununla belə, Azərbaycanın kənd təsərrüfatında əmək məhsuldarlığı hələ də aşağı səviyyədədir. Torpaqlardan istifadə sahəsində də görüləsi işlər çoxdur. Ona görə də aqrar sahədə islahatların yeni mərhələsinə başlayıb kənd təsərrüfatının intensiv və dinamik inkişaf etdirilməsi yolu ilə Azərbaycanın zəngin və əlverişli torpaq-iqlim şəraitindən maksimum yararlanaraq ekoloji cəhətdən təmiz məhsul istehsalını genişləndirmək, həm əhalinin keyfiyyətli ərzaq məhsulları ilə təminatını yaxşılaşdırmaq, həm də dünya bazarına yüksək rəqabət qabiliyyətinə malik keyfiyyətli ərzaq məhsulları çıxarmaq olar. Azərbaycanın kənd təsərrüfatının innovasiyalı inkişaf yoluna keçməsi sayəsində aqrar sektoru iqtisadiyyatın neftdən sonra əsas lokomotivlərindən birinə çevirməkdən ötrü torpaqdan istifadənin səmərəliliyinin artırılması, suvarma sahəsində qabaqcıl təcrübədən istifadənin genişləndirilməsi, genetika və seleksiya sahələrindəki nəticələrin tətbiqinin, eləcə də kənd təsərrüfatının istehsal-texnoloji baxımdan yenidən qurulması işinin sürətləndirilməsi, təşkilati-idarəetmə sahəsində innovasiyalı metodlardan istifadənin dairəsi genişləndirilməsi, eləcə də kənd təsərrüfatının sosial-ekoloji aspektlərinə diqqət artırılması istiqamətlərində sistemli tədbirlər həyata keçirilməlidir. Araşdırmalar göstərir ki, kiçik təsərrüfatların əksəriyyəti aqrobiznesdə uğurlu nəticələr əldə edə bilmirlər. Odur ki, aqrar sahədə istehsalın intensiv yolla inkişafını təmin etmək məqsədilə xırda təsərrüfatların kooperasiya yolu ilə birləşdirilməsi obyektiv zərurətə çevrilmişdir. Xarici ölkələrin təcrübələrinə əsaslanaraq kiçik ölçülü təsərrüfatların könüllülük əsasında kooperasiyalarda birləşdirilməsi istiqamətində müəyyən işlər görülməlidir. Kənd təsərrüfatı ilə məşğul olan fərdi sahibkarların fəaliyyətinin səmərəliliyini artırmaq üçün kooperativ təsərrüfatların yaradılmasına dövlət dəstəyi gücləndirilməlidir. Ölkəmizdə torpaqdan istifadənin səmərəliliyinin artırılması, aqroparkların, müasir texnika və texnologiyaya əsaslanan iri təsərrüfatların yaradılması sahəsində görülən işlərə hərtərəfli dəstək verilməli, müxtəlif vasitələrlə stimullaşdırılmalıdır.

*Müsahibəni hazırladı:*
**Fəxriyyə İKRAMQIZI**



Akif Musayev
Azərbaycan Respublikası vergilər nazirinin müşaviri

## Vergi menecmenti

Vergi menecmenti hesablanan vergilərin idarə olunmasının təşkilini və həyata keçirilməsini nəzərdə tutur. Bu zaman vergilərin idarə olunması təkcə verginin hesablanması və ödənilməsi proseslərini deyil, həm də vergi ödəyicisinin vergitutma obyektinə təsir edə biləcək təsərrüfat əməliyyatlarını əhatə edir. Vergi menecmentinin obyektinə təsərrüfat subyektləri ilə dövlət arasında gəlirlərin formalaşdığı prosesdə meydana çıxan və vergi ödəmələri şəklində maddiləşən iqtisadi münasibətlər aid edilir.

Təbii ki, müəssisə və təşkilatlar tərəfindən həyata keçirilən vergi ödəmələri onların mənfəətini azaldaraq sərbəst kapitalın inkişafı üçün kifayət həcmdə olmasına müəyyən təsir göstərir. Bu zaman vergi yükünün bəzi gəlirlərə münasibətdə qeyri-bərabər paylanması baş verir ki, bu da tətbiq olunan verginin bir sıra gəlir növləri üçün əlverişli, digər gəlir növləri üçün isə əlverişsiz olması səbəbindən irəli gəlir. Bununla əlaqədar olaraq, biznes subyektinin yürütdüyü vergi menecmenti ölkənin vergi siyasətində baş verə biləcək dəyişikliyi qabaqcadan müəyyənləşdirməyə və vergi qanunvericiliyində edilən dəyişikliklərin vergitutma bazasına təsirini qiymətləndirməyə çalışır. Ümumiyyətlə, istənilən təşkilatın maliyyə strukturları qarşısında duran əsas vəzifələrdən birinə ödənilən vergilərin qanuni yollarla maksimum azaldılması və təşkilatın inkişaf üçün tələb olunan maliyyə vəsaitlərinin artırılması istiqamətində tədbirlərin görülməsi aid edilir.

*Vergi maliyyə kateqoriyasına aid olmaqla vergi menecmenti ilə maliyyə menecmenti arasında sıx əlaqənin yaranmasını şərtləndirir və vergi menecmenti maliyyə menecmentinin tərkib hissəsi kimi çıxış edir*

Onu da qeyd etmək lazımdır ki, vergi menecmentinə təkcə idarəedici deyil, həm də idarə olunan sistem kimi baxmaq olar. Bu ondan irəli gəlir ki, vergi menecmenti daim dövlətin vergi, valyuta, gömrük, pul-kredit sahəsində həyata keçirdiyi tənzimləmə siyasətinin təsiri altında olur.

Vergi maliyyə kateqoriyasına aid olmaqla vergi menecmenti ilə maliyyə menecmenti arasında sıx əlaqənin yaranmasını şərtləndirir və vergi menecmenti maliyyə menecmentinin tərkib hissəsi kimi çıxış edir. Son nəticədə isə onların məqsədi bir istiqamətə yönəldilərək təsərrüfat subyektinin aktivlərinin dəyərinin artırılmasına və kapitallaşma səviyyəsinin yüksəldilməsinə xidmət edir. Ümumiyyətlə, maliyyə menecmentinin konseptual məqsədi aşağıdakı əsas strateji istiqamətlərdə həyata keçirilən tədbirlərlə müəyyən olunur:

- ♦ sahibkarlıq fəaliyyətindən əldə edilən gəlirlərin idarə olunması;
- ♦ xərclər üzərində nəzarətin həyata keçirilməsi;
- ♦ likvidlərin idarə olunması;
- ♦ kapitalın idarə olunması;
- ♦ vergilərin idarə olunması;
- ♦ balansarxası fəaliyyətin idarə olunması.

Göründüyü kimi, vergilərin idarə olunması maliyyə menecmentinin əsas strateji istiqamətlərindən biri kimi çıxış edir. Vergi menecmentinin maliyyə menecmentinin bir hissəsi olması özünü həm də onun funksiyalarında göstərir. Ümumiyyətlə, menecmentin mahiyyəti planlaşdırma, təşkilati, motivasiya və nəzarət funksiyaları ilə müəyyən edilir. Onların da həyata keçirilməsi həm maliyyə (bölüşdürücü, nəzarətedici), həm də vergi (fiskal, tənzimləyici) funksiyalarının yerinə yetirilməsi ilə təmin olunur.

Vergi menecmentinin əsas vəzifələrindən biri də təsərrüfat subyektinin ölkə xaricindəki fəaliyyətindən tutulan vergilərin minimallaşdırılması üçün məhdud olmayan vergi öhdəliyini nəzərdə tutan vergiyə cəlbedilmə rejiminin aradan qaldırılmasına beynəlxalq vergi qanunvericiliyi çərçivəsində nail olmaqdır. Ölkədən xaricdə şirkət yaradılarkən vergi planlaşdırılmasının ilk mərhələsində onun yaradılacağı ərazinin seçilməsi və şirkətin səmərəli strukturunun müəyyən olunması başlıca amillər hesab edilir.

Şirkətdaxili vəsaitlərin toplanmasında və maliyyə resurslarının bir ölkədən başqa ölkəyə ötürülməsində yığcamlığın təmin olunması üçün nağd vəsaitlərin idarə edilməsinin beynəlxalq sistemindən istifadə olunur. Bu sistemin tam həcmdə tətbiqi transmilli şirkətlərdə mümkündür. Ümumiyyətlə, transmilli şirkətlərin yaranmasına iqtisadiyyatın qloballaşması ilə gedən proseslərin xarakterik xüsusiyyətlərindən biri kimi baxılır. Beynəlxalq əqdlərdə hesablaşmalar zamanı pul vəsaitlərinin köçürülməsi valyuta mübadiləsi ilə müşayiət edilir. Bu zaman əqdlərin bağlanması ilə pul köçürülməsi arasındakı müddətlər, əməliyyatın xarakterindən asılı olaraq, ticarət təcrübəsi əsasında müəyyənləşdirilir. Əqdin vaxtı və ödəmənin aparılması vaxtları dəyişdikdə, təqdim olunan və qəbul edilən bu kommersiya kreditlərinin həcminin dəyişməsinə və valyuta bazarında tələb və təklifin dəyişkən olmasına gətirib çıxarır. Xarici ödəmələrdə bu prosesin sürətləndirilməsi və ya gecikdirilməsi kapital yerdəyişməsində özünü göstərir. Bu və ya digər valyuta kursunun əlverişsiz olması zamanı itkilərə məruz qalmamaq üçün ixracatçılar onlara edilən pul köçürmələrini müəyyən müddətə təxirə salmağa, idxalçılar isə malların alınmasını surətləndirərək valyuta itkilərinin qarşısını almağa çalışırlar.

Burada da vergi menecmentinin əsas məqsədi təkcə gəlir və xərclərin operativ idarə olunmasının deyil, həm də valyuta dəyişmələrindən müəyyən mənfəətin əldə edilməsinin və pul köçürmələrinin gecikdirilməsi və ya sürətləndirilməsi nəticəsində şirkətin gəlirlərindən hesablanmalı olan vergilərin minimallaşdırılmasının təmin edilməsindən ibarət olur.






Hüquq məsləhətxanamız

Samirə Musayeva
Azərbaycan Respublikası
Vergilər Nazirliyinin Hüquq Baş İdarəsinin rəisi
vergi ödəyicilərinin suallarına cavab verir

# Ödəmə mənbəyində gəlirdən tutulan vergi

***İşdən azad olunmuş işçiyə işlədiyi dövrdə istifadə etmədiyi məzuniyyət günlərinə görə ödənilən məbləğdən ödəmə mənbəyində hansı qaydada vergi hesablanır?***

Bildiririk ki, Vergi Məcəlləsinin (bundan sonra - Məcəllə) 96.1-ci maddəsinə əsasən, rezidentlərin gəlirləri üzrə vergitutma obyekti vergi ili üçün rezidentlərin bütün gəliri ilə həmin dövr üçün bu Məcəllə ilə müəyyənləşdirilən gəlirdən çıxılan məbləğ arasındakı fərqdən ibarət olan vergiyə cəlb edilən gəlirdir.

Məcəllənin 98.1-ci maddəsinə əsasən, fiziki şəxs tərəfindən muzdlu işlə əlaqədar alınan gəlir - əməkhaqqı, bu işdən alınan hər hansı ödəmə və ya fayda, o cümlədən əvvəlki iş yerindən, yaxud gələcək muzdlu işdən alınan gəlirdir.

Məcəllənin 101.1-ci maddəsinə əsasən, vergi tutulan aylıq gəlirin məbləği 2500 manatadək olduqda 14 faiz, 2500 manatdan çox olduqda 350 manat + 2500 manatdan çox olan məbləğin 25 faizi məbləğində vergi tutulur. İki və ya daha çox yerdə muzdla işləyən fiziki şəxslərin gəlirlərindən gəlir vergisi hər bir iş yerində ödənilən məbləğdən ayrıca hesablanır və dövlət büdcəsinə köçürülür. Məcəllənin 150.1.1-ci və 150.1.2-ci maddələrinə əsasən, muzdla işləyən fiziki şəxslərə ödəmələr verən hüquqi şəxslər, sahibkarlar və xüsusi notariuslar ödəmə mənbəyində vergini tutmağa borcludurlar.

Azərbaycan Respublikası Vergi Məcəlləsinə müvafiq olaraq, işçiyə keçmiş iş illərində istifadə edilməmiş əmək məzuniyyətinə görə ödənilən kompensasiya gəlir vergisinə cəlb olunur və bu zaman kompensasiya ödənildikdə gəlir vergisi hər il üçün hesablanan məbləğdən ayrılıqda, işçi ilə son haqq-hesab aparılarkən tam olmayan sonuncu iş ilinin məzuniyyət haqqından isə onun verildiyi ayın əməkhaqqı ilə birlikdə gəlirin ümumi məbləğindən tutulmaqla dövlət büdcəsinə ödənilir.

Bununla yanaşı işçiyə keçmiş iş illərində istifadə edilməmiş kompensasiya ödəmələrindən gəlir vergisi tutularkən vergi kompensasiya ödəmələrinin hesablanmasının həyata keçirildiyi dövrün qüvvədə olan gəlir vergisi dərəcələrinə uyğun olaraq tutulur.

# İnsan kapitalına daha çox vəsait cəlb olunacaq

Dünya İqtisadi Forumu hökumətlərin öz insan ehtiyatlarından səmərəli istifadə etməsi üçün bu sahəyə daha çox sərmayə qoymağın vacibliyi qənaətindədir. Çünki insan inkişafına qoyulan hər bir vəsait qat-qat artıq səmərə verir. Forumun keçirdiyi «İnsan kapitalı indeksi»nin əsasında ölkələrin sağlam, təhsilli və ixtisaslı məhsuldar qüvvələr və ya əməkçilər yetişdirmək qabiliyyəti dayanır. Bu zaman dörd əsas faktora diqqət yetirilir:

- təhsil;
- sağlamlıq və səhiyyə;
- işçi qüvvəsi və məşğulluq;
- sağlam iş mühiti.

Bu faktorlara uyğun olaraq, 2015-ci ildə dünyanın 124 ölkəsinin yer aldığı reytinqin ilk üçlüyünə Finlandiya, Norveç və İsveçrə daxil olub. Siyahıda son yerlərdə Mavritaniya, Çad və Yəmən qərarlaşıb. Birinci onluğa daxil olan digər dövlətlər Şimali Avropa ölkələridir.

Azərbaycan «İnsan kapitalı indeksi»ndə dünya ölkələri sırasında sürətli irəliləyişə nail olmuş və 63-cü yerlə Cənubi Qafqazda birinciliyə yüksələ bilmişdir. Dünya İqtisadi Forumu ekspertlərinin qənaətinə görə, artıq Azərbaycanda elə bir dövr gəlib çatmışdır ki, investisiya qoyuluşlarından istifadədə insan kapitalı başlıca yer tutur. Dövlətimizin başçısı İlham Əliyev bu məsələ ilə bağlı fikirlərini bildirərkən demişdir: «Azərbaycan çox zəngin ölkədir. Bizim çox zəngin sərvətimiz vardır. Ancaq bizim ən böyük resursumuz insanlardır, onların biliyi, savadıdır. Öz imkanlarımızdan səmərəli istifadə edərək maddi kapitalı insan kapitalına çevirməliyik və bunu edirik».

Dövlət başçısının sərəncamı ilə təsdiq olunmuş «Azərbaycan Respublikasının Məşğulluq Strategiyasının həyata keçirilməsi üzrə 2011-2015-ci illər üçün Dövlət Proqramı» bu istiqamətdə həyata keçirilən işlərin daha da genişləndirilməsinə təkan vermişdir. Bu proqram insan inkişafı və əhalinin məşğulluğu sahəsində dövlət siyasətinin ardıcıllığını təmin edərək, ölkə başçısının 2005-ci il 26 oktyabr tarixli sərəncamı ilə təsdiq edilmiş «Azərbaycan Respublikasının Məşğulluq Strategiyası (2006-2015-ci illər)»nın ikinci mərhələsinin reallaşdırılmasına yönəldilmişdir. Dövlət Proqramı işçi qüvvəsinə tələbatın stimullaşdırılmasını, səmərəli işgüzarlıq mühitinin formalaşmasını, struktur islahatlarının dərinləşdirilməsini, investisiya fəallığının daha da artırılmasını və insan kapitalının yüksək inkişaf səviyyəsinin təmin edilməsini nəzərdə tutmuşdur. Sahibkarlığın, xüsusilə kiçik və orta sahibkarlığın inkişafının, eləcə də fərdi əmək fəaliyyəti ilə məşğul olanların iqtisadi həvəsləndirilməsinin təmin edilməsi, peşə təhsilinin əmək bazarının dəyişən tələblərinə uyğunlaşdırılması məqsədilə bu sahədə ixtisas və ixtisaslaşma təsnifatının sadələşdirilməsi, daxili və xarici miqrasiya proseslərinin tənzimlənməsinin təkmilləşdirilməsi məsələləri də önə çəkilir. Qeyri-neft sektorunun, xüsusilə aqrar, toxuculuq, emal müəssisələri və xidmət sahələrinin inkişafı hesabına yeni iş yerlərinin yaradılması, kənd yerlərində sosial və kommunal infrastrukturun inkişaf etdirilməsi yolu ilə əhalinin miqrasiya səviyyəsinin azaldılması da qarşıda duran mühüm vəzifələrdəndir.

Proqramda işçi qüvvəsinə tələbatın stimullaşdırılması və insan kapitalının inkişaf etdirilməsi sahəsində də bir sıra məsələlərin reallaşdırılması nəzərdə tutulmuşdur. 2015-ci ilin sonunadək ölkəmizdə əmək bazarının tələbləri nəzərə alınaraq, rəqabət qabiliyyətli ixtisaslar üzrə kadrların hazırlanması istiqamətində peşə təhsili sisteminin təkmilləşdirilməsi, iş yerində təhsilin davam etdirilməsi, insan amilinin inkişafına yönəldilmiş investisiyaların cəlbi üçün imkanların müəyyənləşdirilməsi, beynəlxalq məşğulluq təsnifatına əsaslanan təkmilləşdirilmiş peşə təsnifatlarının, peşə və təlim standartlarının hazırlanması və s. tədbirlər həyata keçiriləcəkdir.

Dövlət proqramlarında Vergilər Nazirliyi qarşısında da bir sıra vəzifələr müəyyən olunmuşdur. Respublikamızda ədalətli rəqabət mühitinin formalaşdırılması məqsədilə qanunsuz sahibkarlığın və vergi orqanında uçota durmadan sahibkarlıq fəaliyyəti ilə məşğulolma hallarının qarşısının alınması istiqamətində tədbirlərin gücləndirilməsi istiqamətində Vergilər Nazirliyi ardıcıl tədbirlər görür. Nazirlik tərəfindən «Vergi sisteminin inkişafı üzrə Strateji Plan» təsdiq edilmişdir. Həmin plan çərçivəsində 2020-ci ilədək daha mütərəqqi, mükəmməl və beynəlxalq standartlara cavab verən vergi sistemi formalaşdırılacaq, vergi qanunvericiliyi Avropa İttifaqı qanunvericiliyinə və Ümumdünya Ticarət Təşkilatının tələblərinə uyğunlaşdırılacaq.

Vergi ödəyiciləri ilə vergi orqanları arasında partnyorluq münasibətlərinin qurulması, özəl vergi məsləhətçiləri, vergi ombudsmanı institutlarının yaradılması, vergi ödəyicilərinə xidmət mərkəzlərinin spektrinin genişləndirilməsi və səviyyəsinin artırılması, elektron xidmətlərin genişləndirilməsi məhz insanların rahatlığına xidmət edəcək. Əhalidə vergi mədəniyyətinin yüksəldilməsi, gələcəyin intizamlı, savadlı vergi ödəyicilərinin formalaşdırılması işinin səmərəliliyinin artırılması üzrə strateji məqsədə nail olmaq üçün beynəlxalq təcrübənin araşdırılması, məlumatlandırma vasitələrinin, xüsusi dərslik və tədris vəsaitlərinin hazırlanması nəzərdə tutulur.

*Ədalətli rəqabət mühitinin formalaşdırılması məqsədilə qanunsuz sahibkarlığın və vergi orqanında uçota durmadan sahibkarlıq fəaliyyəti ilə məşğulolma hallarının qarşısının alınması istiqamətində tədbirlərin gücləndirilməsi istiqamətində Vergilər Nazirliyi ardıcıl tədbirlər görür*

Vergi ödəyiciləri, o cümlədən əhalinin digər təbəqələri arasında vergi mədəniyyətinin yüksəldilməsinə xidmət edən məlumatlandırma, maarifləndirmə və təbliğat işinin səmərəliliyini təmin etmək məqsədilə sahibkarların və istehlakçıların ictimai birlikləri, təhsil müəssisələri ilə əməkdaşlığın genişləndirilməsi və bu sahədə müvafiq tədris-metodiki təlimatların hazırlanması da Vergilər Nazirliyinin diqqət mərkəzində olan məsələlərdəndir.

**Rəşad SADIQOV**

# Sığorta hadisəsi baş verəndə...

İcbari Sığorta Bürosu zərərçəkən sığortaolunanların və zərər vurulan üçüncü şəxslərin maraqlarının müdafiəsi, icbari sığorta sisteminin sabitliyi və inkişafının təmin edilməsi məqsədi ilə təsis olunub. Büronun fəaliyyətinin bir istiqamətini də vətəndaşların məlumatlandırılması təşkil edir. Məlumatlandırma tədbirləri çərçivəsində büro tərəfindən sığorta hadisəsi baş verən zaman vətəndaşların nələrə diqqət etməli olduqları məqamlar şərh edilib.

Büronun məlumatına görə, avtonəqliyyat vasitəsi sahiblərinin mülki məsuliyyətinin icbari sığortası üzrə sığorta hadisəsi baş verən zaman dərhal 102 nömrəsinə zəng edib DYP əməkdaşlarını hadisə yerinə çağırmaq vacibdir. Hadisə nəticəsində xəsarət alan şəxslər olduğu zaman təcili yardıma (103) və FHN-ə (112) xəbər verilməlidir. Hadisə zamanı zərərvuran nəqliyyat vasitəsini icbari qaydada sığortalayan sığorta şirkətinə məlumat verilməlidir. Zərərvuran nəqliyyat vasitəsi sahibinin icbari sığortasının olub-olmamasını və hansı sığorta şirkətində sığortalandığı barədə məlumatı əldə etmək üçün 9707 qısa nömrəsinə nəqliyyat vasitəsinin dövlət qeydiyyat nişanını göndərməklə məlumat əldə etmək mümkündür.

Daşınmaz əmlakın icbari sığortası üzrə sığorta hadisəsi baş verdikdə şəhadətnamədə göstərilən telefon nömrəsi vasitəsilə sığorta şirkətinə sığorta hadisəsi barədə məlumat verilməlidir. Daşınmaz əmlakın istismarı ilə bağlı mülki məsuliyyətin icbari sığortası üzrə sığorta hadisəsi baş verdikdə də sığorta şirkəti bu barədə məlumatlandırılmalıdır. Həmçinin 112 xidməti vasitəsilə Fövqəladə Hallar Nazirliyinə, ehtiyac olduğu halda digər aidiyyəti qurumlara da xəbər verilməlidir.

Sərnişinlərin icbari fərdi qəza sığortası üzrə sığorta hadisəsi baş verdiyi zaman sığorta şirkətinə bu barədə dərhal məlumat verilməlidir. Hadisə nəticəsində xəsarət alan şəxslər varsa, onların həyatını xilas etmək üçün təcili yardım (103), zərurət olduqda FHN (112) və digər lazımi qurumlara xəbər verilməlidir.

Qeyd edilən sığorta növlərinin hamısında sığorta hadisəsi baş verən zaman hadisə yerini tərk etmək lazım deyil. Sığorta şirkətinin nümayəndəsi və ya digər səlahiyyətli şəxslər baxış keçirənədək hadisə yerində heç bir dəyişiklik edilməməlidir. Zərər dəymiş əmlakı hadisədən dərhal sonrakı vəziyyətdə saxlamaq və sığorta şirkətinin nümayəndəsinə təqdim etmək lazımdır. Lakin zərərin qarşısının alınması və həcminin azaldılması, hadisənin nəticələrinin aradan qaldırılması, zərər dəymiş əmlakın başqa şəxslərin hərəkətinə mane olmaması, sığorta hadisəsi barədə məlumatlandırıldıqdan 5 gün müddətində sığorta şirkətinin nümayəndəsi zərər dəymiş əmlaka baxış keçirmədikdə və digər hallarda zərər dəymiş əmlakın hadisədən dərhal sonrakı vəziyyətdə saxlanmamasına sığorta şirkətinin yazılı razılığı olduqda zərər dəymiş əmlakın yerinin dəyişdirilməsi və ya onun hadisədən dərhal sonrakı vəziyyətdə təqdim edilməməsi mümkündür.

Qeyd edilən sığorta növləri üzrə hadisə barədə şifahi məlumatın verildiyi vaxtdan 3 iş günü ərzində yazılı sığorta tələbinin forması sığorta şirkətindən tələb edilməli və doldurularaq dərhal həmin şirkətə təqdim olunmalıdır.

**AYTƏN**

# Aqrar sahənin inkişafına diqqət artırılır



Azərbaycan hökuməti ilə imzalanmış sazişə əsasən, Dünya Bankı «II kənd investisiya layihəsi» (AZRİP) çərçivəsində mülkiyyətçilərə güzəştli şərtlərlə 30 milyon dollar kredit verəcək. Ümumi dəyəri 80 milyon dollar olan kredit sazişi üzrə indiyədək 50 milyon dollarlıq məbləğ ayrılıb və həmin vəsait aqrar sahədə infrastrukturun yaxşılaşmasına, mikrolayihələrə yönəldilib. Vəsaitin qalan 30 milyonu isə kənd təsərrüfatı məhsulu istehsalı ilə məşğul olan insanlara gəlir əldə etmək imkanlarının yaxşılaşdırılması məqsədilə veriləcək.

Dünya Bankı bundan əvvəl Azərbaycanda aqrar sahəyə dəstək məqsədilə «Kənd investisiya layihəsi»ni həyata keçirmiş və mindən artıq fermer bundan yararlanmışdı. «II kənd investisiya layihəsi» isə 2017-ci ilədək icra olunacaq. Layihə çərçivəsində aqrar sahədə fəaliyyət göstərən istehsalçılar və emalçılar arasında kooperasiya əlaqələrinin inkişaf etdirilməsi, rəqabətqabiliyyətli məhsul istehsalının artırılması da diqqət mərkəzində saxlanılır.

Dünya Bankı Azərbaycanla aqrar sahədə uğurlu əməkdaşlığın gələcəkdə də davam edəcəyini, bu məqsədlə üçüncü layihə üzrə hazırlıq işlərinin aparıldığını bəyan edib. Perspektiv əməkdaşlıq planına iri fermer təsərrüfatlarının yaradılması, rəqabətqabiliyyətliliyin artırılması məqsədilə mütərəqqi texnologiyaların tətbiqi, aqrotexservis xidmətləri şəbəkəsinin genişləndirilməsi, kənd təsərrüfatının texnikaya, mineral gübrələrə və pestisidlərə olan tələbatının gücləndirilməsi nəzərdə tutulur. Bununla yanaşı, erroziyaya uğramış və şoranlaşmış torpaqların texniki və bioloji rekultivasiyasını həyata keçirməklə yenidən torpaq dövriyyəsinə qaytarılması, texniki nəzarət, fitosanitar, toxumçuluq, tingçilik və damazlıq işlərinin dövlət tərəfindən dəstəklənməsi planlaşdırılır.

Dünya Bankı Azərbaycanda aqroparkların yaradılması istiqamətində yeni layihələrin həyata keçirilməsinə də yardım etməyi planlaşdırır. Azərbaycan hökuməti ilə imzalanmış «Kənd təsərrüfatında rəqabət qabiliyyətinin gücləndirilməsi» layihəsinə əsasən, ölkədə ərzaq emalı texnologiyalarına əsaslanan yeni müəssisələr qurulacaq. Bankın nümayəndəsi Lora Takın bildirib ki, layihə çərçivəsində mövcud emal müəssisələrinin müasir texnologiyalarla təchiz edilməsinə, elm və istehsal arasındakı əlaqələrin gücləndirilməsinə, aqrar parkların, logistika mərkəzlərinin təşkilinə yardım göstəriləcək. Hazırda Aran və Şirvan bölgəsində, Xızı rayonunda aqroparkların yaradılması məqsədilə baş plan hazırlanır. Şəmkirdə təməli qoyulmuş özəl pilot aqroparkında kənd təsərrüfatı məhsullarının istehsalı, emalı, qablaşdırılması, logistika xidmətlərinin göstərilməsi və hazır malların satış üçün ölkə bazarlarına çıxarılması və ixrac edilməsi zəncirinin təşkili nəzərdə tutulur.

BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatı (FAO) isə Azərbaycanda qadın sahibkarlığın inkişafına maliyyə dəstəyi göstərəcək. «Kənd ərazilərində yaşayan qadınların kəndin davamlı inkişafı və imkanların artırılmasına dəstək» layihəsinə əsasən, regionlarda çalışan sahibkar qadınların kiçik fermer təsərrüfatlarına, emal və yeyinti sənayesi müəssisələrinə aşağı faizlərlə kreditlər veriləcək. Layihəyə uyğun olaraq, müxtəlif rayonlar üzrə pilot ərazilər seçiləcək, sonrakı mərhələdə kredit alan kənd qadınlarının əhatəsi genişləndiriləcək. Layihənin həyata keçirilməsində Türkiyənin təcrübəsindən geniş istifadə olunacaq. Qardaş ölkədə bu cür layihələr bir neçə ildir ki, həyata keçirilir və uğurlu nəticələr verir. Layihə çərçivəsində Türkiyənin tanınmış mütəxəssisləri azərbaycanlı qadın sahibkarlara təlim və məsləhət xidmətləri göstərəcək, istehsal-satış imkanları, aqrar sahədə sığorta və digər sahələr üzrə dəstək verəcək.

**E.CƏFƏRLİ**

## RƏQƏMLƏRİN DİLİ İLƏ

- 2015-ci il iyulun 1-nə Azərbaycan Mərkəzi Bankının valyuta ehtiyatlarının məbləği **8 milyard 520,2 milyon ABŞ dolları** təşkil edib. Bu, ötən ayın 1-nə olan müvafiq göstərici ilə müqayisədə **89,4 milyon dollar** çoxdur.
- İndiyədək Dünya Bankı tərəfindən Azərbaycana 51 layihə çərçivəsində **3,6 mlrd. dollar** kredit ayrılıb. 35 layihə artıq başa çatıb, 16 layihənin icrası isə davam edir.
- Azərbaycan İpoteka Fondunun vəsaitləri hesabına verilmiş ipoteka kreditləri üzrə məbləğ **687 milyon 779 min 030 manatdan** çox təşkil edib.
- 2015-ci ildə inşaat işlərinin aparılması üçün dövlət büdcəsindən **5654,7 milyon manat** məbləğində vəsait ayrılması nəzərdə tutulub.
- Bu ilin birinci yarım ili ərzində Sahibkarlığa Kömək Milli Fondu tərəfindən 2972 sahibkara **97 milyon manat** güzəştli kredit verilib.

# Əməkdaşlığın inkişafı perspektivləri müzakirə olunub

İyulun 2-də iqtisadiyyat və sənaye naziri Şahin Mustafayev Dünya Bankının Cənubi Qafqaz ölkələri üzrə regional direktoru Henri Keralinin rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.



Görüşdə beynəlxalq maliyyə institutları ilə birgə həyata keçirilən layihələrin əhəmiyyəti qeyd edilib, layihələrin icrasında qabaqcıl beynəlxalq təcrübənin, texnologiya və yeniliklərin tətbiq olunduğu, eləcə də Dünya Bankı ilə əməkdaşlığın çoxşaxəliliyi, iqtisadiyyatın diversifikasiyası, qeyri-neft sektorunun inkişafı və biznes mühitinin daha da yaxşılaşdırılması istiqamətində işlərin davam etdirildiyi diqqətə çatdırılıb. Bildirilib ki, indiyədək Dünya Bankı tərəfindən Azərbaycana 51 layihə çərçivəsində 3,6 milyard dollar kredit ayrılıb. Artıq 35 layihə başa çatıb, 16 layihənin icrası isə davam edir. Dünya Bankının dəstəyi ilə həyata keçirilən «Bərk məişət tullantılarının vahid idarəçiliyi» layihəsi Bakı şəhərində tullantıların idarə edilməsi baxımından çox əhəmiyyətlidir.

Ekoloji layihələrin davamı olaraq, Bakı şəhərində göllərin ekoloji vəziyyətinin yaxşılaşdırılması, o cümlədən Böyükşor gölünün təmizlənməsi sahəsində görülən işlər, eləcə də Balaxanı, Sumqayıt, Mingəçevir sənaye parkları, Neftçalada sənaye məhəlləsi, sənaye parklarında və məhəllələrində tətbiq olunan güzəştlər barədə məlumat verilib, bu sahədə Dünya Bankı ilə mümkün əməkdaşlıq barədə fikirlər səsləndirilib.

Henri Kerali uğurlu əməkdaşlığa görə məmnunluğunu ifadə edərək Azərbaycanda Dünya Bankı ilə əlaqələrə böyük önəm verildiyini vurğulayıb, bu nüfuzlu maliyyə institutunun ölkəmizdə həyata keçirilən layihələrə bundan sonra da maliyyə və texniki dəstək göstərəcəyinə əminliyini ifadə edib.

Görüşdə, həmçinin, növbəti 5 il ərzində əməkdaşlıq istiqamətlərinin müəyyənləşdirilməsi, sənaye parklarında məsləhət xidmətlərinin göstərilməsi, turizmin inkişaf etdirilməsi barədə fikir mübadiləsi aparılıb.

# Vətəndaşların əmlak qeydiyyatına marağı artıb

Bu ilin may ayının əvvəlində Azərbaycan Respublikası Prezidenti tərəfindən Əmlak Məsələləri Dövlət Komitəsinin (ƏMDK) yeni Əsasnaməsinin təsdiq edilməsi daşınmaz əmlakın qeydiyyatında mühüm sosial əhəmiyyətə malik olub. Fərman daşınmaz əmlakın qeydiyyatında, torpaqların istifadəsi və kadastr məsələlərində vahid idarəçilik prinsipini nəzərdə tutur.



**2015-ci ilin ilk rübündə regionlarda əmlakın qeydiyyatı 20%-dən çox yüksəlib və ölkədə 49 minə yaxın daşınmaz əmlak üzərində mülkiyyət hüququ qeydə alınıb**

Yeni qanunvericiliyə əsasən, artıq vətəndaşlar yalnız bir ünvana gəlməklə daşınmaz əmlakını qeydiyyatdan keçirə, torpaq sahələrinə dair kadastr məsələlərini həll edə biləcəklər. Bununla da qeydiyyat prosesində operativlik, şəffaflıq, rahatlıq və əlverişlilik daha da artacaqdır. Komitənin tətbiq etdiyi elektron, onlayn, SMS və mobil ofis xidmətlərinin, eləcə də mütəmadi keçirilən «kütləvi çıxarış» kampaniyasının nəticəsi olaraq, əhalinin öz əmlakını rəsmiləşdirməsi sahəsində canlanma müşahidə olunur. Bu məsələdə vətəndaşlar arasında aparılan mütəmadi maarifləndirmə tədbirlərinin də xüsusi əhəmiyyəti var.

Son illərdə əmlakın qeydiyyatı prosedurlarının sayı və buna sərf edilən müddətlər azaldılıb. 2012-ci ildən tətbiqinə başlanan elektron xidmətlərin sayı 31-ə çatıb və əhali arasında elektron xidmətlərin populyarlığı daim artmaqdadır. Təkcə bu ilin birinci rübündə 36 minə yaxın müraciət elektron xidmətlər vasitəsilə daxil olub. Ümumilikdə isə elektron xidmətlər vasitəsilə təmin edilən müraciətlərin sayı 210 minə yaxın olub.

Komitənin 8 ay ərzində davam etdirdiyi «kütləvi çıxarış» kampaniyası da əhalinin qeydiyyata olan marağının yüksəlməsinə müsbət təsir göstərib. Kampaniyanın mobil ofis xidmətləri vasitəsilə keçirilməsi, əlavə vaxt itkisinin qarşısının alınması, xidmətlərin yerlərdə birbaşa ünvanlara rahat və operativ şəkildə çatdırılması mühüm sosial üstünlükdür. Komitənin məlumatına görə, bu il kampaniya çərçivəsində bir sıra yeniliklər edilib. Bunlar çıxarışların təqdim olunması ilə yanaşı, həm də qeydiyyata dair ilkin sənədlərin qəbulu və fiziki məhdudiyyətli insanlara çıxarışların onların evində təqdim olunmasıdır. Cari ilin ilk rübündə Masallı, Zaqatala və Beyləqanda keçirilən kampaniya çərçivəsində 600-ə yaxın vətəndaşa çıxarış təqdim olunub, 300-ə yaxın vətəndaşdan ilkin sənədlər qəbul edilib. İndiyədək kampaniyadan ümumilikdə 3300-ə yaxın vətəndaş faydalana bilib.

Cari ilin ilk rübündə regionlarda əmlakın qeydiyyatı 20%-dən çox yüksəlib və ölkədə 49 minə yaxın daşınmaz əmlak üzərində mülkiyyət hüququ qeydə alınıb. Aparılan qeydiyyatın 11 mindən çoxu (23,3%-i) ilkin, 38 minə yaxını (76,7%-i) isə təkrar qeydiyyata aiddir. Ötən ilin yanvar-mart ayları ilə müqayisədə ümumi qeydiyyat 11,1% artıb.

Rüb ərzində 35 mindən çox daşınmaz əmlaka texniki pasport tərtib edilib, 9 min ipoteka müqaviləsi, mindən çox yüklülük (icarə, istifadə) dövlət qeydiyyatına alınıb. Hüquqi və fiziki şəxslərə dövlət reyestrindən 33 mindən çox məhdudiyyət arayışı, əhaliyə xidmətlə bağlı 6 minə yaxın digər müxtəlif məzmunlu arayışlar verilib, 32 minə yaxın daşınmaz əmlak obyektinə müayinə aktı tərtib edilib. Ötən ilin müvafiq dövrü ilə müqayisədə yüklülüyün qeydiyyatında 46,9%, ipotekanın qeydiyyatında isə 2% artım olub. Məhdudlaşdırmaya dair dövlət reyestrindən arayışların sayında 6,8%, əhaliyə xidmətlə bağlı müxtəlif arayışların sayında isə 26,5% artım müşahidə edilib. Mülkiyyət hüquqlarının qeydiyyatı aparılan əmlaklardan 9 mindən çoxu fərdi yaşayış və bağ evi, 11 mindən çoxu mənzil, 27 minə yaxını torpaq sahəsi, 1 minə yaxını isə qeyri-yaşayış binasıdır.

**AYTƏN**

# Gənclərin sahibkarlıq fəaliyyəti stimullaşdırılır

İqtisadiyyat və Sənaye Nazirliyi (İSN) iqtisadiyyatın qeyri-neft sektorunda səmərəli layihələr hazırlayıb həyata keçirmək istəyən gənc sahibkarlar üçün stimullaşdırıcı tədbirlər görməyi planlaşdırır. Kiçik və orta sahibkarlığın müasir innovativ modellərindən hesab olunan biznes inkubatorları ilə bağlı maraqlı ideyalar reallaşdırmaq arzusunda olan potensial sahibkarlara maddi və mənəvi dəstəyin göstərilməsi bu addımlardan biridir.

Nazirliyin Biznes Tədris Mərkəzinin rəhbəri Akif Fərruxovun sözlərinə görə, yeni ideya və layihələrlə müraciət edən gənc sahibkarlara biznesin planlaşdırılması və idarə olunması, investisiya layihələrinin və biznes-planların hazırlanması, marketinq araşdırmalarının aparılması, potensial biznes tərəfdaşları ilə əlaqələrin qurulması və digər sahələr üzrə kömək göstəriləcək.

***Yeni biznes ideyası - biznes inkubatorları***

A. Fərruxov bildirib ki, Quba-Xaçmaz regionunda yaradılan biznes inkubatoru gənc sahibkarların hazırlanmasına xidmət edir. Ötən ilin sonlarından fəaliyyətə başlayan biznes inkubatorunda turizm, istehsal, kənd təsərrüfatı və xidmət sahələrində gənc sahibkarların hazırlanması davam etdirilir. Biznes inkubatoru yalnız sahibkarlığın inkişafına, xüsusilə gənclərin sahibkarlıq fəaliyyətinə cəlb edilməsinə xidmət etmir, həm də innovativ və perspektivli biznes sahələrinin gücləndirilməsinə, regionda məşğulluğun artırılmasına öz töhfəsini verir.

Bu cür layihələrin həyata keçirilməsi dövlətin gələcək iqtisadi siyasətinin prioritetlərindəndir və qarşıdakı illərdə bölgələrdə tətbiq olunması ilə bağlı hökumət tərəfindən müvafiq tapşırıqlar verilib. Digər iqtisadi rayonlarda, eləcə də Balaxanı Sənaye Parkında, Sumqayıt Kimya Sənayesi Parkında, Aran Regional İnkişaf Mərkəzində və s. biznes inkubatorlarının yaradılması planlaşdırılır. «Azərbaycan 2020: gələcəyə baxış» İnkişaf Konsepsiyasında, «Azərbaycan gəncliyi 2011-2015-ci illərdə Dövlət Proqramı»nda, «Qeyri-neft sektorunun inkişafına dair Strateji Plan»da və digər sənədlərdə biznes inkubatorlarının yaradılmasının təşviq edilməsi, bu layihələrin sayının artırılması ilə bağlı konkret tədbirlər nəzərdə tutulub.

Hazırda yerli sahibkarların təqdim etdikləri biznes inkubatorlarına xarici ölkələrdən olan gənc sahibkarların da cəlb edilməsi ilə bağlı işlər aparılır. Bundan başqa, biznes inkubatoru iştirakçılarının fəaliyyət göstərdikləri sahələr üzrə gələcəkdə xarici ölkələrin müəssisələrində ixtisasartırmanın keçirilməsi, onlara xarici tərəfdaşların tapılmasında dəstək göstərilməsi nəzərdə tutulur. Yeri gəlmişkən, bu istiqamətdə artıq ilk addımlar atılıb və Almaniya-Azərbaycan ikitərəfli əməkdaşlıq proqramı çərçivəsində gənc sahibkarlar və menecerlər Almaniyaya ixtisasartırma kurslarına göndərilib.

***Gənc sahibkarlara verilən güzəştli kreditlərin həcmi artırılır***

İSN gəncləri biznes inkubatorları üzrə səmərəli layihələrin hazırlanmasına təşviq etməklə bərabər, digər innovativ layihələrin, biznes ideyalarının reallaşdırılmasına da dəstəyi artıracaq. İqtisadiyyat və sənaye nazirinin müavini Sahib Məmmədov bildirib ki, qeyr-neft sektorunun inkişaf etdirilməsi üçün, ilk növbədə, ölkədə innovasiyalara, müasir texnologiyalara əsaslanan istehsalın qurulmasına nail olunmalıdır. Bu istiqamətdə ən uğurlu və özünü təsdiq etmiş texnoloji modellərə üstünlük veriləcək. Ötən müddət ərzində gənclər arasında sahibkarlığın inkişaf etdirilməsi və sahibkarlıq fəaliyyəti ilə məşğul olmaq istəyən gənclərə dəstəklə bağlı təkliflər hazırlanıb, güzəştli maliyyə mexanizmindən səmərəli istifadə, gənclərin yeni layihələrə cəlb olunması kimi təkliflərə baxılıb və həmin təkliflərin təkmilləşdirilməsi üçün aidiyyəti qurumla iş aparılmaqdadır. Bütün bu tədbirlərin həyata keçirilməsində məqsəd ölkədə gənc sahibkarlıq sinfinin formalaşdırılmasını təmin etməkdir.

Regionlarda gənclərin məşğulluğunun inkişaf etdirilməsi və əmək ehtiyatlarının keyfiyyətcə yaxşılaşdırılması istiqamətində iqtisadi maarifləndirmə, məsləhət xidmətinin genişləndirilməsi, məşğulluq və sahibkarlıq fəaliyyəti sahəsində qabaqcıl təcrübənin öyrənilməsi, sərhəd bölgələrində sahibkarlıq fəaliyyətinə başlamaq istəyən gənclərə dəstək göstərilməsi və işsizliyin aradan qaldırılması məqsədilə bir sıra tədbirlər keçirilib.

«Sahibkarlığın inkişafına dövlət dəstəyi» layihəsi çərçivəsində iqtisadi rayonlarda keçirilən tədbirlərdə gənc sahibkarlar və sahibkarlıq fəaliyyətinə yeni başlamaq istəyən gənclərin təqdim etdikləri layihələrin maliyyələşdirilməsi müzakirə olunub, bir sıra layihələr Sahibkarlığa Kömək Milli Fondu tərəfindən maliyyələşdirilməsi təmin edilib.

***Aqrar sahədə çalışan gənclərə dövlət dəstəyi gücləndirilir***

2014-ci ildə SKMF tərəfindən gənc sahibkarların biznes imkanlarının artırılması xüsusi diqqət mərkəzində olub və bu kateqoriyadan olan 1200-ə yaxın gənc sahibkara 50 milyon manatdan artıq güzəştli kredit verilib. Maliyyələşdirilmiş layihələr hesabına 2500-dən çox yeni iş yerlərinin yaradılması nəzərdə tutulur.

Kənd Təsərrüfatı Nazirliyi də gənc sahibkarlığa dəstəyi prioritet istiqamətlərdən biri hesab edir. Regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramında bu sahə ilə əlaqədar nəzərdə tutulan tədbirlərin həyata keçirilməsi üçün ərazi kənd təsərrüfatı idarələrinə müvafiq tapşırıqlar verilib. Bölgələrdə aqrar sahədə çalışan gənclərin iqtisadi fəallığının artırılması, qeyri-neft sektorunda inkişafın dəstəklənməsi və sahibkarlığın inkişaf etdirilməsi məqsədi ilə tədbirlər həyata keçirilib. «Azərbaycan Gəncliyi 2011-2015-ci illərdə Dövlət Proqramı»nın həyata keçirilməsi üzrə tədbirlər planına uyğun olaraq sərhədyanı və dağlıq ərazilərə köçən fermer təsərrüfatı və digər sahibkarlıq fəaliyyəti ilə məşğul olmaq istəyən gənclərə dəstək göstərilib. Nəticədə gənc torpaq mülkiyyətçiləri tərəfindən özəl toxumçuluq və heyvandarlıq təsərrüfatları yaradılıb. Bununla yanaşı, «Aqrolizinq» ASC tərəfindən ölkəmizə idxal olunan damazlıq heyvanların texnikasının bir hissəsi gənc sahibkarlara lizinq yolu ilə verilib.

***Gənclər əməyə cəlb edilir***

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi «Özünədəstək» mexanizmi çərçivəsində gənc ailələrdə məşğulluqla bağlı problemlərin aradan qaldırılması istiqamətində müxtəlif addımlar atmaqdadır. Hazırda iki istiqamət - şəxsi yardımçı təsərrüfatın inkişafı, həmçinin əmtəə və xidmətlərin istehsalı üzrə əmək fəaliyyətinə cəlb edilməsi üzrə layihələr həyata keçirilir. Birbaşa gənc sahibkarlığın fəallaşdırılmasına yönəldilən «Özünədəstək» proqramının ünvanlı sosial yardım proqramının mövcud büdcəsi tərkibində maliyyələşdirilməsi nəzərdə tutulur. Proqramda iştirak edəcək ailə ünvanlı sosial yardım almayacaq və ona verilməli olan vəsait hesabına sahibkarlıq fəaliyyətinə imkan yaradılacaq. Respublika üzrə işaxtaran və işsiz şəxslərin, xüsusilə də gənclərin kiçik sahibkarlıq fəaliyyəti ilə məşğul olmaları üçün məşğulluq xidməti orqanları tərəfindən sahibkarlığın əsasları, eləcə də məşğulluğun təmin olunmasına imkan verən xidmət sahələri üzrə digər peşə hazırlığı kursları təşkil edilir. Bundan başqa, gənc sahibkarlar tərəfindən istehsal olunan məhsulların sərgilərinin və əmək yarmarkalarının təşkil edilməsi də nəzərdə tutulur.

**Elbrus CƏFƏRLİ**

# Elektron ödəniş sahəsində daha bir yenilik

*Ölkə vətəndaşları arasında ödənişlərin internet vasitəsilə onlayn rejimdə həyata keçirilməsi getdikcə daha çox populyarlıq qazanır. Onlayn ödəniş sistemləri vasitəsilə mobil və stasionar telefon operatorlarına, internet provayderlərə, kabel televiziyasına, kommunal təşkilatlara, lizinq və banklara ödəniş etmək mümkündür.*

Bu günlərdə dörd yaşını qeyd edən «Hesab.az» portalı son vaxtlar göstərdiyi onlayn xidmətlə dairəsini daha da genişləndirir. Beynəlxalq elektron təhlükəsizlik standartlarına cavab verən müasir texniki infrastruktura malik olan portalın «Android» və «Windows» platformalarında tətbiqləri də mövcuddur. Portala kartların yaddaşda saxlanılması funksiyası əlavə edilib. PCİ DSS sertifikatı vasitəsilə ödənişlər daha təhlükəsiz olub, «ikipilləli doğrulama» funksiyası əlavə edilib.

İndi «Hesab.az» üzərindən həm də onlayn sığorta xidmətləri və kinoteatrlara bilet almaq da mümkündür. İstifadəçilərə «şəxsi kabinet» yaratmaq, ödənişlərin tarixçəsini aparmaq və bonuslar qazanaraq müxtəlif hədiyyələr üzrə hərraclarda iştirak etmək imkanı təqdim olunur.

«Hesab.az»ın təqdim etdiyi yeniliklərdən biri də budur ki, portalın istifadəçiləri qazandıqları bonuslarla hərraclarda iştirak etməklə yanaşı, həm də onları «Bakcell» danışıq dəqiqələrinə dəyişə bilərlər. Bunun üçün portaldakı şəxsi kabinetlərinə daxil olub bonusların sayının qeyd olunduğu hissədə yaradılmış yeni keçidə giriş etmək lazım gəlir.

«Hesab.az»dan verilən məlumata görə, «Bakcell» abunəçiləri üçün 2000 bonus 1 danışıq dəqiqəsinə dəyişilir və bu zaman dəqiqələr 3 gün ərzində istifadə edilməlidir. Bu qayda şəbəkədaxili zənglərə aiddir. Hələlik yalnız CİN-kart istifadəçiləri üçün nəzərdə tutulan bu xidmətdən tezliklə fakturalı xətt abunəçiləri də yararlana biləcəklər.

**F. İKRAMQIZI**



Mehdi Babayev
«Professional MÜHASİB» jurnalının baş redaktoru, audit üzrə mütəxəssis

Audit

# Müəssisələrdə müasir uçot tələblərinə əməl edilməsinin zəruriliyi

Müəssisələrdə maliyyə hesabatlarının düzgünlüyünün təsdiqi ilə əlaqədar aparılan kənar məcburi auditin keyfiyyətinə mənfi təsir edən hallar mövcuddur və belə hallar müəssisələrin özləri tərəfindən uçot aparılan zaman yaradılır. Xüsusi mülkiyyət növünə malik olan müəssisələrdə auditin aparılmasını çətinləşdirən əsas faktor uçotun ənənəvi prinsiplər üzərində qurulmasıdır. Bu cür uçotun aparılmasının davam etməsi uçot və audit sahəsində yaxşı nəticələr verməyəcək. Etiraf etməliyik ki, çox az sayda müəssisələr (büdcə təşkilatları istisna) mühasibat uçotu prinsiplərinə tam olaraq əməl edirlər. Belə müəssisələr əsasən iri sahibkarlıq subyektləridir və həmin müəssisələrdə auditin aparılmasında maneələr, demək olar ki, baş vermir.

Bəs hansı müəssisələrdir ki, kənar auditin keyfiyyətli aparılması praktik olaraq mümkün deyil? Audit müşahidələri onu deməyə əsas verir ki, kiçik və orta sahibkarlıq subyektlərinin, o cümlədən özəlləşdirilmə proqramları çərçivəsində köhnə dövlət müəssisələrinin bazasında yaradılmaqla xüsusi mülkiyyətə verilən yeni (özəlləşdirilmiş) səhmdar cəmiyyətlərinin əksəriyyətində auditə təqdim olunan maliyyə hesabatları mühasibat uçotu prinsiplərinə tam cavab vermir. Auditora təqdim olunan maliyyə hesabatlarında bir çox hallarda əsas vəsaitlər, ehtiyatlar, mənfəət, zərər, kapital ehtiyatları və mənfəət vergisi göstəriciləri təhrif olunmuş formada əks etdirilir. Çünki bu göstəricilər vergi və mühasibat uçotu məqsədlərinə görə fərqli rəqəmlərlə əks oluna bilər. Belə olan halda, müəssisəyə dəvət olunan auditor maliyyə hesabatlarının göstəricilərinin düzgünlüyünü yoxlamaq əvəzinə auditor özü hesabat göstəricilərini düzəltməklə məşğul olmaq məcburiyyətində qalır. Məsələn, Vergi Məcəlləsinin tələbləri çərçivəsində 1 ildən artıq müddətə (misal üçün: 3 il) istifadəsi nəzərdə tutulan 450 manata alınan maddi aktiv (məsələn, printer) müəssisənin balansında azqiymətli və ya digər əşya qismində ehtiyat kimi təqdim edilir. Digər bir misal olaraq göstərmək olar ki, əsas vəsaitlərin hesabatda təqdim olunan göstəriciləri həmin əsas vəsaitlərin ədalətli (və ya real bazar) dəyərindən kəskin fərqlənir. Yaxud da yoxlama və nəzarət funksiyasını həyata keçirən dövlət orqanları tərəfindən tətbiq olunan əlavə tədiyyələr, maliyyə sanksiyaları və faizlər maliyyə hesabatlarında cari xərclər kimi deyil, birbaşa kapital ehtiyatlarının azaldılması kimi təqdim edilir. Hətta müəssisə ilin yekunu olaraq mühasibat uçotu baxımından zərərlə fəaliyyət göstərməsinə baxmayaraq, mənfəət və zərərlər haqqında hesabatda süni olaraq mənfəət və vergi məqsədli mənfəət vergisi göstəricisi əks etdirilir.

Bütün bunlar mühasibat uçotu tələblərinə görə düzgün deyildir və bu halda auditor müvafiq düzəlişlərin edilməsini tələb etsə də müəssisə rəhbərləri tərəfindən buna cəhd olunmur. Əgər auditor özü bu işi görməli olursa, deməli, auditor praktik olaraq müəssisə (sifarişçisi) üçün balansı dəqiqləşdirməklə yenidən özü hazırlayır. Əslində, bu cür halların baş verməsi aparılan auditin şəffaflığını şübhə altına ala bilər. Ona görə də müəssisələrdə uçotla bağlı ciddi dəyişiklikləri həyata keçirmək lazımdır ki, auditor balansın düzəldilməsində iştirak etməkdənsə, ilkin sənədlərin yoxlanılmasına daha çox vaxt sərf etsin.

Bu cür müəssisələrdə mühasibat balansındakı göstəricilərin dəqiqləşdirilməsi və düzgün təqdim edilməsi məqsədilə heç olmasa aşağıda göstərilən istiqamətlərə diqqət artırılmasına ciddi ehtiyac vardır:

- balansın vergi uçotu prinsipləri üzərində (sırf Vergi Məcəlləsinin tələbləri əsasında) qurulmasını get-gedə məhdudlaşdırmaq;
- vergi uçotunu (vergi bəyannamələrini və əlavələri) mühasibat uçotu məlumatlarından istifadə etməklə qurmaq (tərtib etmək);
- mühasibat uçotu ilə vergi uçotu arasındakı fərqləri nəzarətdə saxlamaq və qiymətləndirmək;
- uyğun olan amortizasiya metodlarını müəyyənləşdirmək;
- uçot siyasətini və ən əsası, sənəd dövriyyəsini müəyyənləşdirmək;
- heç olmasa ildə bir dəfə aktivlərin, xüsusi olaraq əsas vəsaitlərin, debitor borcların və öhdəliklərin inventarizasiyasını və qiymətləndirilməsini mütəmadi həyata keçirmək.

# Ənənəvi Beynəlxalq Sığorta Forumu

*Bakıda ənənəvi 4-cü Azərbaycan Beynəlxalq Sığorta Forumu keçirilmişdir. Azərbaycan Sığortaçılar Assosiasiyasının (ASA) təşkilatçılığı və Maliyyə Nazirliyinin dəstəyi ilə iyulun əvvəlində işə başlayan forumu ASA-nın sədri Orxan Bayramov açmışdır.*

Tədbirdə çıxış edən maliyyə naziri Samir Şərifov 2015-ci ilin iqtisadi çağırışlar ili olduğunu qeyd etmişdir: «Dünyada baş verən iqtisadi dəyişikliklər, əmtəənin azalması və neftin qiymətinin düşməsi bizim regiona da təsirsiz ötüşmədi. Azərbaycan Mərkəzi Bankı iqtisadiyyatın rəqabətqabiliyyətliliyini dəstəkləmək üçün devalvasiyaya getmək məcburiyyətində qaldı: «Devalvasiya bank və maliyyə sektoruna, həmçinin sığorta sektoruna mənfi təsir göstərib. Sığorta şirkətləri potensial təhlükələri və riskləri qiymətləndirməlidirlər. Maliyyə Nazirliyi həm də sığorta sahəsini tənzimləyən dövlət qurumudur. Nazirliyin nəzdində fəaliyyət göstərən Dövlət Sığorta Nəzarəti Xidməti vasitəsi ilə bu sektorun inkişafına daim nəzarət edilir. Son 5 ildə sığorta bazarını genişləndirmək üçün ciddi addımlar atılıb».

Nazirin sözlərinə görə, Dünya Bankı və Beynəlxalq Valyuta Fondu ilə birlikdə Azərbaycanda maliyyə sektorunun qiymətləndirilməsi hazırlanıb: «Bu qiymətləndirməyə əsasən, Azərbaycanın sığora bazarı yaxşı kapitalizasiya edilib və dayanıqlıdır. Biz bunu gələcəkdə də qorumalıyıq. Əsasən də istehlakçıların müdafiəsi sahəsində görüləcək işlərimiz çoxdur. Sığota şirkətləri müştərilərlə normal şəraitdə işləməli, istehlakçılara münasib xidmət təklif etmək hesabına öz mənfəətlərini artırmalı, mənfi riskləri və təhdidləri düzgün qiymətləndirməlidirlər. Maliyyə Nazirliyinə və dövlət qurumlarına sığorta bazarında olan problemlərlə bağlı daxil olan şikayətlərin sayı kəskin azalıb. Bu, önəmli göstərici və müsbət addımdır. Sığorta sahəsində etibar və nüfuz xüsusi əhəmiyyətə malikdir. Bu baxımdan, müştərilərlə münasibətlərdə təhlükəsizliyə diqqət yetirilməli, bu sahəyə ciddi resurslar ayrılmalıdır. Kənd təsərrüfatı sahəsinə tətbiq olunan sığorta məsələsi yenidən müzakirə edilməli, yeni strategiya işlənib hazırlanmalıdır. Bütün bunlar aqrosənayenin inkişafına əlavə dəstək verməlidir».

Millət vəkili, Milli Məclisin İqtisadi siyasət komitəsinin sədri Ziyad Səmədzadə bildirmişdir ki, Azərbaycanda qurulan yeni iqtisadi sistemin ən başlıca istiqamətlərindən biri də ölkədə sığorta bazarının inkişaf etdirilməsidir.

Konfransın ilk günündə «Cari reallıq çərçivəsində sığorta və təkrarsığorta bazarı - inkişaf üçün yeni biznes sahələri», «Qafqaz regionunda əmlak sığortası», «Təkrarsığorta təminatı və anderraytinqin yeni üsulları» mövzuları da müzakirə olunmuşdur.

Forumun ikinci günü paralel keçirilən seminarlarda yerli sığorta təşkilatlarının nümayəndələri və qonaqlar «Avtomobil sığortası və bazarın inkişafı üçün yeni texnologiyalar», eləcə də «Bank sığortası və həyat sığortası» kimi önəmli mövzulara toxunmuşlar.

Qeyd edək ki, forumda ümumilikdə 25-dən çox ölkənin 70 şirkətinin 250-dən çox nümayəndəsi iştirak etmişdir. Foruma beynəlxalq təşkilatların və müxtəlif assosiasiyaların (ictimai birliklərin) təmsilçiləri də qatılmışlar.

«Deloitte» şirkətinin idarəedici partnyoru Nuran Kərimov bildirmişdir ki, son illər Azərbaycanda sığorta sistemi böyük inkişaf yoluna qədəm qoyub: «Bu artıq hər yerdə müşahidə olunur. Regional təcrübənin öyrənilməsində, regionda gedən əsas tendensiyaları analiz etməkdə forumun böyük rolunun olacağı şübhəsizdir».

Forumda iştirak edən Rusiyanın «Qlin» sığorta agentliyinin baş direktoru Dmitri Şaydulin bu tədbirin çox maraqlı və vacib olduğunu vurğulamışdır: «Biz müstəqil sığorta brokeri olaraq son 5 il ərzində bu forumlarda iştirak edirik. Müəssisələrin, kompaniyaların birgə iştirak etdiyi bu möhtəşəm tədbirin böyük biznes perspektivləri var. Qərara gəlmişik ki, hər il bu tədbirdə iştirak etməklə sığorta sahəsinin inkişafına biz də öz töhfəmizi verək».

Foruma 10 yerli, 7 xarici şirkət sponsorluq etmişdir. Bu sırada İsveçrənin təkrarsığorta nəhəngi «Swiss Re» şirkətini, eləcə də bütün dünyada sığorta hadisələri nəticəsində dəyən zərərlərin qiymətləndirilməsi ilə məşğul olan «Audatex» şirkətini xüsusi qeyd etməyə dəyər. «Audatex»in rəhbəri Haydar Aydın bizimlə söhbətində foruma böyük əhəmiyyət verdiklərini və bu tədbirə əliboş gəlməyərək sığorta və təmir şirkətlərinə avtomobil qəza sığortası ilə bağlı yeni proqram təminatı təqdim etdiklərini vurğuladı: «Dünyanın 80 ölkəsində işləyirik. Beynəlxalq aləmdə mövcud olan bütün iri sığorta şirkətləri ilə müqavilələrimiz var. Azərbaycanda icbari sığorta seriyası ilə məşğul olan 15 şirkətlə əlaqə yaratmışıq və ən yaxın dövrdə fəaliyyətə başlayacağıq».

**Fəxriyyə İKRAMQIZI**

# Yeni hesablar planı üzrə ikili yazılışların verilməsi

Xanbaba Quliyev,
Auditorlar Palatasının üzvü

Hörmətli oxucular, yeni hesablar planında əks etdirilən bütün mühasibat hesablarında aparılacaq əməliyyatlara dair ikili yazılışların verilməsi ilə bağlı tövsiyələrimizi davam etdiririk. Bu dəfə də 113№-li «Torpaq, tikili və avadanlıqlarla bağlı məsrəflərin kapitallaşdırılması» hesabında uçota alınan əməliyyatlar və ikili yazılışlardan bəhs edəcəyik.

**Misal.** Müəssisə 2013-cü ilin iyul ayında kənar tikinti işi görən podratçı (icraçı) təşkilat ilə 94400 manat (ƏDV ilə birlikdə) dəyərində tikinti işlərinin görülməsi haqqında müqavilə bağlamış və müqaviləyə əsasən icraçı-tikinti təşkilatı müəssisə üçün ofis binasının tikintisini öhdəsinə götürmüşdür. Binanın tikintisinin bir hissəsi (ƏDV ilə birlikdə 35400 manat dəyərində tikinti işləri) icraçı tərəfindən «işlərin görülməsinə dair akt» tərtib olunmaqla 2013-cü ilin dekabr ayında müəssisəyə (sifarişçiyə) təhvil verilmişdir. Tikintinin qalan hissəsi isə 2014-cü ilin oktyabr ayında tam başa çatmış və həmin ayda da «işlərin görülməsinə dair akt» tərtib olunaraq təhvil verilmişdir. 2014-cü ilin noyabr-dekabr aylarında binanın müvafiq dövlət orqanlarında qeydiyyatdan keçirilməsi üçün müraciətlər edilmiş və bununla əlaqədar olaraq, 2015-ci ilin fevral ayında 2000 manat ödəniş edilmişdir. 2015-ci ilin fevral ayında müvafiq dövlət orqanlarından alınan qeydiyyat sənədləri əsasında ofis binasının istismarı mümkün olmuşdur. Bu əməliyyatlarla bağlı sifarişçi müəssisədə veriləcək ikili yazılışları təyin etmək tələb olunur.

| Tarix | Hesabın №-si və adı | Əməliyyatın məzmunu | Debet (məbləğ) | Kredit (məbləğ) |
|---|---|---|---|---|
| Dekabr 2013 | 113, Torpaq, tikili və avadanlıqlarla bağlı məsrəflərin kapitallaşdırılması | 2013-cü ilin dekabr ayında təhvil alınmış tikinti işlərinin dəyəri (ƏDV-siz məbləğ) | 30000 | |
| Dekabr 2013 | 536, Tikinti müqavilələri üzrə qısamüddətli kreditor borcları | 2013-cü ilin dekabr ayında təhvil alınmış tikinti işlərinin dəyəri (ƏDV-siz məbləğ) | | 30000 |
| Dekabr 2013 | 241, Əvəzləşdirilən ƏDV | 2013-cü ilin dekabr ayında təhvil alınmış tikinti işlərinin dəyərinə hesablanmış ƏDV-nin məbləği | 5400 | |
| Dekabr 2013 | 536, Tikinti müqavilələri üzrə qısamüddətli kreditor borcları | 2013-cü ilin dekabr ayında təhvil alınmış tikinti işlərinin dəyərinə hesablanmış ƏDV-nin məbləği | | 5400 |
| Oktyabr 2014 | 113, Torpaq, tikili və avadanlıqlarla bağlı məsrəflərin kapitallaşdırılması | 2014-cü ilin oktyabr ayında təhvil alınmış tikinti işlərinin dəyəri (ƏDV-siz məbləğ) | 50000 | |
| Oktyabr 2014 | 536, Tikinti müqavilələri üzrə qısamüddətli kreditor borcları | 2014-cü ilin oktyabr ayında təhvil alınmış tikinti işlərinin dəyəri (ƏDV-siz məbləğ) | | 50000 |
| Oktyabr 2014 | 241, Əvəzləşdirilən ƏDV | 2014-cü ilin oktyabr ayında təhvil alınmış tikinti işlərinin dəyərinə hesablanmış ƏDV-nin məbləği | 9000 | |
| Oktyabr 2014 | 536, Tikinti müqavilələri üzrə qısamüddətli kreditor borcları | 2014-cü ilin oktyabr ayında təhvil alınmış tikinti işlərinin dəyərinə hesablanmış ƏDV-nin məbləği | | 9000 |
| Fevral 2015 | 113, Torpaq, tikili və avadanlıqlarla bağlı məsrəflərin kapitallaşdırılması | Müvafiq dövlət orqanları tərəfindən alınan qeydiyyat sənədləri (sertifikatlar, razılaşdırmalar və s.) üçün ödənilən rüsumlar | 2000 | |
| Fevral 2015 | 537, Digər qısamüddətli kreditor borcları | Müvafiq dövlət orqanları tərəfindən alınan qeydiyyat sənədləri (sertifikatlar, razılaşdırmalar və s.) üçün ödənilən rüsumlar | | 2000 |
| Fevral 2015 | 111, Torpaq, tikili və avadanlıqlar – ilkin dəyər | 2015-ci ilin fevral ayında ofis binası istismara tam qəbul edilmişdir | 82000 | |
| Fevral 2015 | 113, Torpaq, tikili və avadanlıqlarla bağlı məsrəflərin kapitallaşdırılması | 2015-ci ilin fevral ayında ofis binası istismara tam qəbul edilmişdir | | 82000 |

Cədvəldən göründüyü kimi, tikinti müqaviləsi üzrə işlər icraçı tərəfindən 2013-cü ilin iyun ayında başlamış, sifarişçi müəssisə tərəfindən işlərin bir hissəsi 2013-cü ildə, qalan hissəsi isə 2014-cü ildə təhvil alınmasına baxmayaraq, istismara yalnız 2015-ci ildən başlanılması mümkün olmuşdur. Bu səbəbdən də amortizasiya 2015-ci ildən başlayaraq tətbiq oluna bilər.

## vergi təqvimi

| İYUL | | | | | | |
|---|---|---|---|---|---|---|
| I | II | III | IV | V | VI | VII |
| | | 1 | 2 | 3 | 4 | 5 |
| 6 | 7 | 8 | 9 | 10 | 11 | 12 |
| 13 | 14 | 15 | 16 | 17 | 18 | 19 |
| 21 | 21 | 22 | 23 | 24 | 25 | 26 |
| 27 | 28 | 29 | 30 | 31 | | |

**Qeyd:** *Verginin ödənilmə və bəyannamənin verilmə müddətinin sonuncu günü təqvimdə göy rənglə seçilmişdir. Həmin gün istirahət və ya bayram gününə düşdüyü halda, növbəti iş gününə keçirilmişdir.*

**Ödənilən vergi:**
15 iyul - «(1)» və «(2)».
21 iyul - «(1-1)», «3», «4», «8», «9», «10.1», «10.2», «10.3» və «11».

**«(1) və (2)» - Gəlir və mənfəət vergisi:** Gəlir və mənfəət vergisi üzrə hesabat dövrü təqvim ilidir. Hüquqi şəxslər və fərdi sahibkarlar rüb qurtardıqdan sonra 15 gündən gec olmayaraq cari ödəmələri dövlət büdcəsinə ödəməlidirlər. Bələdiyyə mülkiyyətində olan müəssisə və təşkilatlar mənfəət vergisini yerli büdcəyə (bələdiyyə büdcəsinə) ödəyirlər. Cari vergi ödəmələri vergi ili üçün vergi ödəyicisindən tutulan verginin məbləğinə aid edilir.

Vergi ödəyicisi il ərzində cari vergi ödəmələrinin məbləğini öz seçiminə əsasən aşağıda göstərilən iki mümkün metoddan birinə uyğun müəyyənləşdirə bilər.

*Birinci metod:* Hər rüb üçün cari ödəmələrin məbləği əvvəlki vergi ilində hesablanmış verginin 1/4 hissəsi məbləğində müəyyən edilir.

*İkinci metod:* Cari rübdəki gəlirin məbləği keçən ilin ümumi gəlirində (gəlirdən çıxılan məbləğlər nəzərə alınmadan) verginin xüsusi çəkisini göstərən əmsala vurmaqla müəyyən edilir.

Vergi ödəyicisi il ərzində cari vergi ödəmələrinin məbləğini müəyyənləşdirməyin yuxarıdakı iki mümkün metodundan birini seçir və hər il aprel ayının 15-dən gec olmayaraq bu barədə vergi orqanına məlumat verir. Vergi ödəyicisi cari vergi ödəmələrinin məbləğini müəyyənləşdirmək üçün tətbiq etdiyi metod barədə məlumat vermədiyi halda, vergi orqanı birinci metodu tətbiq edir.

Vergi ödəyicisi cari vergi ödəmələrinin məbləğini müəyyənləşdirmək üçün ikinci metodu seçdiyi halda, hər rüb başa çatdıqdan sonra 15 gün ərzində mənfəətdən və ya gəlirdən hesablanmış cari vergi məbləği barədə vergi orqanına arayış təqdim etməlidir, əks halda, vergi orqanı birinci metodu tətbiq edir.

Əvvəlki vergi ilində fəaliyyəti olmayan və növbəti vergi ilində fəaliyyət göstərən, habelə yeni yaradılmış və fəaliyyət göstərən vergi ödəyiciləri mənfəət və ya gəlir vergisi üzrə cari vergi ödəmələrini təqvim ili ərzində rüblər üzrə artan yekunla hesablamalı, cari vergi ödəmələrinin məbləği mənfəətdən və ya gəlirdən verginin məbləğinin 75 faizindən az olmamalı, rüb başa çatdıqdan sonra 15 gün ərzində cari vergi ödəmələrini aparmalı və rüb ərzində mənfəətdən və ya gəlirdən hesablanmış cari vergi məbləği barədə vergi orqanına arayış təqdim etməlidir.

**«(1-1)»- Gəlir vergisi (xüsusi notariuslar üzrə):** Xüsusi notariusların gəlir vergisi üzrə hesabat dövrü rübdür.

Xüsusi notariuslar tərəfindən hər ay ərzində aparılan notariat hərəkətlərinə, habelə notariat hərəkətləri ilə əlaqədar göstərilən xidmətlərə görə alınan haqlardan (xərclər nəzərə alınmadan) 10 faiz dərəcə ilə gəlir vergisi hesablanmalı, hesablanmış vergi məbləği isə növbəti ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə ödənilməlidir.

Xüsusi notariuslar tərəfindən aparılan notariat hərəkətlərinə, habelə notariat hərəkətləri ilə əlaqədar göstərilən xidmətlərə görə alınan haqlardan (xərclər nəzərə alınmadan) hesablanan gəlir vergisi barədə «Xüsusi notariusun gəlir vergisi bəyannaməsi» hər rüb başa çatdıqdan sonra növbəti ayın 20-dən gec olmayaraq vergi orqanına təqdim edilməlidir.

**«3» - Əlavə dəyər vergisi:** ƏDV üzrə hesabat dövrü təqvim ayı sayılır. ƏDV ödəyən vergi ödəyicisi ƏDV-nin bəyannaməsini hər hesabat dövrü üçün hesabat dövründən sonrakı ayın 20-dən gec olmayaraq qeydiyyatda olduğu vergi orqanına verir və vergini dövlət büdcəsinə ödəyir.

**«4» - Aksiz vergisi:** Aksizlər üzrə hesabat dövrü təqvim ayıdır. Aksizli mallar istehsal edildikdə hər hesabat dövrü üçün vergi tutulan əməliyyatlar üzrə aksizlər hesabat dövründən sonrakı ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə ödənilməli və vergi orqanına bəyannamə verilməlidir.

**«8» - Mədən vergisi:** Mədən vergisi üzrə hesabat dövrü təqvim ayı sayılır. Mədən vergisinin ödəyicisi hesabat ayı üçün faydalı qazıntıların çıxarıldığı aydan sonrakı ayın 20-dən gec olmayaraq vergini ödəyir və bəyannamə verir. Yerli əhəmiyyətli tikinti materialları üzrə mədən vergisi yerli (bələdiyyə) büdcəyə ödənilir və bələdiyyələrə mədən vergisinin bəyannaməsi verilir. Yerli əhəmiyyətli tikinti materiallarına kərpic-kirəmit gilləri, tikinti qumları, çınqıl xammalı aid edilir.

**«9» - Sadələşdirilmiş vergi:** Sadələşdirilmiş vergi üzrə hesabat dövrü rübdür. Sadələşdirilmiş verginin ödəyicisi olan şəxs hesabat rübündən sonrakı ayın 20-dən gec olmayaraq ödənilməli olan verginin məbləği haqqında vergi orqanına bəyannamə verir və həmin müddətdə vergini dövlət büdcəsinə ödəyir.

**«10.1» - Muzdlu işlə əlaqədar ödəmə mənbəyində tutulan vergi:** Muzdlu işlə əlaqədar ödəmə mənbəyində vergi tutan ƏDV və sadələşdirilmiş vergi ödəyicilərinin bu ödəmələr üzrə hesabat dövrü vergi ili, digər vergi ödəyicilərinin hesabat dövrü isə rübdür.

Muzdla işləyən fiziki şəxslərə ödəmələr verən hüquqi şəxslər və fərdi sahibkarlar muzdla işləyən fiziki şəxslərin hesablanmış aylıq gəlirinə gəlir vergisini hesablamalı və hesablanmış məbləği növbəti ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə ödəməlidirlər.

Muzdlu işlə əlaqədar ödəmə mənbəyində tutulan vergilər barədə bəyannaməni ƏDV və sadələşdirilmiş verginin ödəyiciləri hesabat ilindən sonrakı ilin yanvar ayının 31-dən gec olmayaraq, digərləri isə hesabat rübü başa çatdıqdan sonra növbəti ayın 20-dən gec olmayaraq vergi orqanına təqdim etməlidirlər.

**«10.2» - Ödəmə mənbəyində tutulan digər vergilər:** ƏDV və sadələşdirilmiş verginin ödəyicilərinin muzdlu işlə əlaqədar aparılan ödəmələri istisna olmaqla, ödəmə mənbəyində tutulan digər vergilər üzrə hesabat dövrü rübdür.

Hüquqi şəxslər və fərdi sahibkarlar qeyri-dövlət pensiyaları və ödəmə mənbəyində vergiyə cəlb olunmalı digər ödəmələri verərkən bu gəlirlərdən vergini tutmalı, tutulmuş məbləği gəlirin ödənildiyi rübdən sonrakı ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə köçürməli və həmin müddətdə də bəyannaməni vergi orqanına təqdim etməlidirlər.

**«10.3» - Sığorta müqaviləsinə vaxtından əvvəl xitam verildikdə ödəmə mənbəyində tutulan vergi:** Həyatın yığım sığortası və pensiya sığortası üzrə bağlanılmış sığorta müqaviləsinə vaxtından əvvəl xitam verildikdə aparılan ödəmələrdən ödəmə mənbəyində tutulan verginin hesabat dövrü rübdür.

Həyatın yığım sığortası və pensiya sığortası üzrə bağlanılmış sığorta müqaviləsinə vaxtından əvvəl xitam verildikdə, sığorta haqları ödəyən sığortaçılar fiziki şəxslərin hesablanmış aylıq gəlirinə gəlir vergisi hesablamalı və hesablanmış vergini növbəti ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə ödəməli və gəlirin ödənildiyi rübdən sonrakı ayın 20-dən gec olmayaraq bəyannaməni vergi orqanına təqdim etməlidirlər.

**«11» - Dövlət rüsumu:** Dövlər rüsumu üzrə hesabat dövrü rübdür. Notariat hərəkətlərinə görə dövlət rüsumu notarius tərəfindən qəbul edilərək iki bank günü ərzində, Azərbaycan Respublikasının xarici ölkələrdəki diplomatik nümayəndəliklərində aparılan konsul əməliyyatları üçün alınan dövlət rüsumu bir ay ərzində, digər dövlət rüsumları isə tutulduqdan sonra bir bank günü ərzində dövlət büdcəsinə köçürülür.

«Dövlət rüsumu haqqında» Qanunda nəzərdə tutulmuş dövlət rüsumunu tutan şəxslər hesabat rübündən sonrakı ayın 20-dək dövlət rüsumunun tutulması barədə hesabatları vergi orqanına təqdim etməlidirlər.

beynəlxalq panoram

# Rusiyada vahid sosial vergi gündəmdədir

Hökumət büdcədənkənar fondlara sosial ödəmələrin inzibatçılığının Federal Vergi Xidmətinə verilməsi imkanlarını nəzərdən keçirir. Eyni zamanda, vahid sosial verginin tətbiqi qaydasına da qayıdılması istisna edilmir.

Bu ilin mart ayında Maliyyə və İqtisadi İnkişaf nazirliklərinə tapşırılmışdı ki, Federal Vergi Xidmətinin bazasında informasiya resurslarının aparılması, vergi və qeyri-vergi ödənişlərinin inzibatçılığı üzrə vahid orqanın yaradılması imkanlarını araşdırsın. Maliyyə Nazirliyindəki mənbələrdən məlum olub ki, müzakirə edilən məsələlərdən biri də sosial ödənişlər inzibatçılığının Pensiya Fondundan alınaraq vergi xidmətinə verilməsidir. Vahid sosial vergiyə qayıtmağın mümkünlüyü nəzərdən keçirilsə də sığorta ödəmələrinin 30% səviyyəsində qalacağı dəqiqdir.



Dövlət Reyestr Xidmətinin funksiyalarının da Federal Vergi Xidmətinə verilməsi təklif edilib. Lakin bu təklif Maliyyə Nazirliyi, eləcə də vergi xidmətinin özü tərəfindən dəstəklənməyib. Çünki vergitutma məqsədləri üçün kadastr qiymətləndirməsi Dövlət Reyestr Xidmətinin funksiyalarından yalnız biridir. Həmin xidmət mülkiyyət hüquqlarının təyin edilməsi və qeydiyyatına, əsaslı tikintinin obyektləri haqqında məlumatların toplanmasına, ərazi planlaşdırılması, şəhərsalma və kartoqrafiyanın aparılmasına da cavabdehlik daşıyır.

Müzakirə olunan daha bir məsələ isə Federal Gömrük Xidmətinin vergi orqanları ilə birləşdirilməsidir. Vahid sosial vergidən imtina edilərək dövlət büdcədənkənar fondlarına sığorta ödəmələrinə keçilməsi barədə qərar 2009-cu ilin sonunda qəbul edilib və 2010-cu ildən qüvvəyə minib, sosial ödəmələrin ümumi dərəcəsi isə vahid sosial verginin dərəcəsi həddində - 26% saxlanılıb. Lakin 2011-ci ildə Pensiya Fonduna ödəmələr 20%-dən 26%-ə qədər, Məcburi Tibbi Sığorta Fonduna 3,1%-dən 5,1%-ə qədər artırılıb, Sosial Sığorta Fonduna isə ödəmələrin dərəcəsi 2,9% səviyyəsində qalıb. Beləliklə, ödəmələrin ümumi dərəcəsi 34%-ə qədər artıb. Lakin bu qərara elə həmin il yenidən baxılıb və 2012-ci ildən sığorta ödəmələrinin dərəcəsi 30%-ə qədər azaldılıb. Hazırda sosial ödəmələrin səviyyəsi eyni həddə qalır. Bu ödəmələrin 22%-i Pensiya Fonduna, 2,9%-i Sosial Sığorta Fonduna, 5,1%-i isə Məcburi Tibbi Sığorta Fonduna keçirilir.

# Moldovada informasiya sahəsinə vahid vergi tətbiq oluna bilər

Ölkənin İnformasiya Texnologiyaları Nazirliyi informasiya texnologiyaları (İT) sektoru üçün vahid vergi tətbiqini təklif edib. Müşahidələr göstərir ki, Moldova indiki halda İT sektorunun inkişafında qonşu ölkələri üstələyir. Son illər ölkədə informasiya xidmətlərinin ixracı dinamik şəkildə artır. Korrupsiya və bürokratiya investorları qorxudan əsas problem olaraq qalsa da, İnformasiya Texnologiyaları Nazirliyində hesab edirlər ki, vahid verginin tətbiqi bu sahənin inkişafına yeni təkan verəcək və İT şirkətlərini izafi yoxlamalardan qoruyacaq.

«Vahid vergi dövriyyəyə və ya satışa tətbiq ediləcək. Beləliklə, biz vergi müfəttişlərinə və başqa nəzarətedici orqanların nümayəndələrinə qanunun interpretasiyası üçün yer qoymayacağıq. Məsələ ondadır ki, Moldovada dövlət nəzarət orqanları tez-tez cəza aləti rolunda çıxış edir», - deyə informasiya texnologiyaları naziri Pavel Filip bildirib.

Vahid vergi dərəcəsi hələlik müəyyən edilməyib, lakin dəqiq məlumdur ki, bu dərəcə 12 faizi keçməyəcək. Vergini İT-parkların üzvü olacaq bütün firmalar ödəyəcəklər. Ekspertlər qeyd edirlər ki, sahənin müvəffəqiyyətli inkişafı ilk növbədə iqtisadi və siyasi sabitlikdən asılı olacaq. Son illər ərzində Moldovada informasiya xidmətlərinin ixracı 35% artıb, 2013-cü ildə onun həcmi 57 milyon dollar təşkil edib. Ekspertlər üç il sonra bu göstəricinin 110 milyon dollara çatacağını proqnozlaşdırırlar.

Xarici ölkələrin təcrübəsi

# Cənubi Koreya Respublikasının vergi sistemi: *mənfəət vergisi*

2012-ci il yanvarın 1-də və ya bu tarixdən sonra başlayan vergi ili üzrə mənfəət vergisinin dərəcələri aşağıdakı kimidir:

| Vergiyə cəlb olunan gəlir (milyon von (KRV) ilə) | Marjinal hədd (%-lə) |
|---|---|
| 200-dək | 10 |
| 200-20000 | 20 |
| 20 000-dan çox | 22 |
| | *100 KRV = 0,0932 manat* |

Vergi güzəştlərindən asılı olmayaraq, aşağıdakı minimum vergilər ödənilməlidir:

• kiçik və orta müəssisələr üçün: vergiyə cəlb olunan məbləğdən (güzəştlər tətbiq olunmazdan əvvəl) - 7%;

• digər müəssisələr üçün - güzəştlər tətbiq olunmazdan əvvəl vergiyə cəlb edilən gəliri 8 milyon avroyadək olduqda - 10%, 8 milyon avrodan çox 80 milyon avrodan az olduqda 12%, 80 milyon avrodan çox olduqda isə 17%.

Amortizasiya nazirliyin əmrləri ilə müəyyən edilmiş dərəcələr və istifadə müddətinə uyğun olaraq həyata keçirilir. Amortizasiya metodu əsas vəsaitlərin növündən asılıdır:

• binalar və qeyri-maddi aktivlər - düz xətt üsulu ilə;

• binalar və dağ-mədən sənayesində istifadə olunan əsas maddi vəsaitlər istisna edilməklə digər əsas maddi vəsaitlər - sabit faiz üsulu və ya düz xətt üsulu ilə;

• dağ-mədən hüququ - istismar-istehsalat üsulu və ya düz xətt üsulu ilə;

• dağ-mədən sənayesində istifadə olunan maddi əsas vəsaitlər - istismar-istehsalat üsulu, sabit faiz üsulu və ya düz xətt üsulu ilə;

• təkmilləşdirmə xərcləri - malların satışı və ya istifadəsinə başlanılan ildən sonrakı 20 il üzrə bərabər paylanmış məbləğlər üzrə;

• dövlətə, yerli əyalətlərə və aidiyyəti qeyri-kommersiya təşkilatlarına bağışlanmış aktivlər - aktivlərin istifadə müddəti üzrə bərabər paylanmış məbləğlər üzrə hesablanır.

Sahibkarlıq fəaliyyəti ilə bağlı 1 yanvar 2009-cu il tarixdə və ya bu tarixdən sonra başlayan vergi ili ərzində yaranan zərər növbəti 10 illik müddətə keçirilə bilər, bu şərtlə ki, zərərin məbləği təqdim edilmiş vergi bəyannaməsində və ya vergi orqanının qərarı əsasında təsdiq olunsun. 2009-cu ildən əvvəl başlayan vergi ili üzrə zərər növbəti 5 illik müddətə keçirilə bilər.

Zərərin ötən dövrə keçirilməsi mümkün deyil. Lakin xüsusi hallarda kiçik və orta müəssisələrə zərərlərini ötən ilə keçirməyə icazə verilir.

Yerli müəssisələrə aşağıdakı vəsaitləri ödəyən şəxslər mənfəət vergisini ödəmə mənbəyində cədvəldə göstərilən dərəcələrlə tutmalı və növbəti ayın 10-dək dövlət büdcəsinə köçürməlidirlər:

| | Dərəcə (%-lə) |
|---|---|
| **Faiz gəlirləri:** | |
| - ümumilikdə | 14 |
| - özəl borclar üzrə faizlər | 25 |
| Qiymətli kağızların investisiyası trastlarından əldə olunmuş mənfəətin bölünməsi | 15 |

Ödəmə mənbəyində tutulan vergilər son vergilər hesab olunmur və həmin vergilər son vergi öhdəliyi müəyyən edilərkən nəzərə alınır.

1 yanvar 2014-cü il tarixdən müəssisənin faiz gəlirlərindən yuxarıda qeyd olunan ödəmə mənbəyində vergi ilə yanaşı, 10% dərəcə ilə əlavə yerli gəlir vergisi tutulur.

Vergi güzəştləri xüsusi iqtisadi məqsədlər üçün tətbiq edilir. Müddət uzadılmadıqda əksər güzəştlər 1-5 il müddətində avtomatik olaraq başa çatır. Ümumiyyətlə, bir fəaliyyət növü və ya aktivə eyni zamanda bir neçə vergi güzəşti tətbiq edilə bilməz. Vergi güzəştləri tətbiq edilən müəssisələrə minimum vergi dərəcələri tətbiq olunur.

***Kiçik və orta müəssisələr.*** Kiçik və orta müəssisələrə münasibətdə investisiya ehtiyatları, investisiya vergi kreditləri və vergi dərəcələrinin azaldılması kimi xüsusilə seçilən vergi güzəştləri tətbiq edilir. Güzəştlərin başa çatması müddətləri fərqlidir.

***Texnologiya və insan resurslarının inkişafı.*** Bunun üçün aşağıdakı güzəştlər tətbiq edilir:

• texnologiya və insan resurslarının inkişafı üzrə xərclər və investisiyalar üzrə vergi kreditləri (31 dekabr 2015-ci ilədək);

• 31 dekabr 2015-ci ildə və ya həmin tarixdən əvvəl alınacaq patent hüquqlarının əldə edilməsi;

• riskli kapitallı şirkətlərin səhm və ya səhmdar kapitalının təqdim edilməsindən əldə olunan kapital gəlirləri üzrə vergi güzəştləri (31 dekabr 2014-cü il tarixdən əvvəl əldə olunmuş səhm və ya səhmdar kapitalı üzrə).

***Beynəlxalq kapital əməliyyatları.*** Aşağıda qeyd olunanlar gəlir və mənfəət vergisindən azaddır:

• Koreyada sahibkarlıq fəaliyyəti yeri olmayan qeyri-rezidentlərə milli və ya yerli hökumət və ya hər hansı yerli korporasiya tərəfindən xaricdə hazırlanan xarici valyuta istiqrazlarından ödənilən faiz və komissiyalar;

• xarici maliyyə institutlarından və ya valyuta biznesi ilə məşğul olan müəssisələrdən alınmış, valyuta bankı tərəfindən xarici valyuta ilə yenidən ödənilə bilən xarici valyuta borcları üzrə faiz və komissiyalar;

• qeyri-rezidentlərin xarici valyuta bankında xarici valyuta ilə olan depozit sertifikatlarından və «Xarici valyuta əməliyyatları haqqında» qanuna uyğun olaraq, xarici ölkədə buraxılan və ya satılan notlardan əldə olunan faiz və komissiyalar;

• divident gəlirlərinin icazəli xarici resursların inkişafı layihələrinə qoyulmuş investisiyalardan əldə olunan hissəsi (31 dekabr 2015-ci ilədək).

***Digər güzəştlər.*** Aşağıda qeyd olunanlara digər güzəştlər tətbiq edilir:

• məhsuldarlığın artırılması, tullantılarla mübarizə, təhlükəsizlik, mühafizə və digər məqsədlərlə müxtəlif sahələrə istehsalat biznesi tərəfindən qoyulmuş investisiya;

• iş yerlərinin yaradılması;

• işçilərin evlə təmin olunması məqsədilə qoyulmuş investisiya;

• korporativ yenidəntəşkil;

• az inkişaf etmiş sahələrin inkişaf etdirilməsi, misal üçün: Seul və metropolitan sahələrdən köçmə, kənd təsərrüfatı sahələrində binesin idarə olunması və s.;

• sosial rifahın yaxşılaşdırılması;

• əmanətlərin təşviqi.

Koreyada özünüqiymətləndirmə sistemi tətbiq olunur. Vergi bəyannaməsi vergi ili başa çatdıqdan sonra 3 ay müddətində təqdim edilməlidir.

Təqdim olunmuş bəyannamədə hər hansı səhv və ya xəta olarsa və ya şirkət aidiyyəti sənədləri təqdim etməzsə, vergitutma bazasının və ödənilməli verginin hesablanması vergi orqanı tərəfindən həyata keçirilir.

Qabaqcadan ödənilən və ödəmə mənbəyində tutulan bütün vergilər son vergi öhdəliyi müəyyən edilərkən nəzərə alınır. Son vergi bəyannamə təqdim olunarkən ödənilməlidir. Əlavə ödənilmiş vergi məbləğləri geri qaytarılır.

*Rubrika üçün materialları Vergi siyasəti və strateji araşdırmalar Baş İdarəsi təqdim edib*

krossvord



**Yuxarıdan aşağı:** 1.Polşada şəhər; 2.Neptun planetinin peyki; 3.Gədəbəy rayonunda kənd; 4.Atlantik okeanında ucqar dəniz; 5.Misir ərazisində Nil çayı üzərində tikilən bənd; 6.Masallı rayonunda kənd; 9.«Qəbul olsun», «arzun yerinə yetsin» mənasında, adətən, duaların axırında söylənilir; 13.Orta əsrlər fars ədəbiyyatının, qəzəl janrının ən görkəmli nümayəndələrindən biri; 15.Amerika və Uzaq Şərq ölkələrində çox məşhur olan idman növü; 16.Kiçik Asiyada antik şəhər; 17.Hindistanın məşhur siyasi xadiminin adı; 18.Kanadanın Banf Milli parkında buz gölü; 20.Qədim zamanlardan bu günümüzə qədər istifadə edilən təxmini uzunluq ölçü vahidi; 21.Meyvə şirəsi ilə qənd qarışığından hazırlanan şəffaf kristal şirni növü. **Soldan sağa:** 1.Mədəniyyət əsərlərinin vəhşicəsinə dağıdılması, mədəniyyət düşmənçiliyi; 5.Quran surələrinin müstəqil mənası olan cümlələrindən hər biri; 7.Respublikamızda rayon; 8.Suri - Rusiya Federasiyasında çay; 10.Qax rayonunda kənd, alimləri ilə məşhurdur; 11.Qiymətli kağızlarda, kağız pul nişanlarında, sikkələrdə göstərilən dəyər; 12.Suyun süxurları əritməsi, onlarda boşluqların və bunlarla əlaqədar yer səthində və dərinlikdə özünəməxsus relyef formalarının əmələ gəlməsi hadisəsi; 14.Rusiya Federasiyasının Orlov vilayətində çay; 19.Uzaq Şərqdə liman şəhəri; 21.Sinir mənasını verən mürəkkəb sözlərin başlanğıc hissəsi; 22.Nepalda böyük göl; 23.Afrikada dövlət; 24.Iyulun 4-də «İstiqlal günü»nü qeyd edən ölkə; 25.Heykəltəraşlıqda işlədilən gildən və ya mumdan hazırlanmış qurumayan plastik kütlə.



Kanadanın Banf Milli parkında buz gölü

**Tərtib etdi: Rafael**

*Qəzetimizin ötən nömrəsində getmiş krossvordun cavabları:*

**Yuxarıdan aşağı:** 1.Driada; 2.Klarnet; 3.Rioni; 4.Takoma; 5.Aktiv; 6.Dəvəçi; 9.Elti *(dağ)*; 13.Çula *(xaqan)*; 15.Ekvador; 16.Akkord; 17.Əzrail; 18.Plenum; 20.Tapir; 21.Stayn *(Gertruda)*. **Soldan sağa:** 1.Dekorator; 5.Aid; 7.İvanovka; 8.Stiv *(Cobs)*; 10.Dendi; 11.Maleviç *(Kazimir)*; 12.İtoçu; 14.Diler; 19.Kataliz; 21.Sevil *(Zeynalova)*; 22.Olpa; 23.Qabardin; 24.Dər; 25.Palindrom.

Vergilər
SOSİAL-İQTİSADİ HƏFTƏLİK
12 fevral 2000-ci ildən çıxır

Təsisçi: Azərbaycan Respublikası Vergilər Nazirliyi

Baş redaktor: Anar Əliyev
anar.eliyev@taxes.gov.az

Baş redaktor müavini: Məti Osmanoğlu
redaksiya@vergiler.az

Qeydiyyat şəhadətnaməsi № R148
VÖEN: 1300327481
IBAN: AZ46ATAZ01200012258000138090
Atabank ASC. Kod: 507581
VÖEN: 9900006651

M/h: AZ50NABZ01350100000000032944
S.W.I.F.T. BIK ATAZAZ22

Ünvan: AZ 1141, Bakı ş., Əbdürrəhim bəy Haqverdiyev küç., 60

Telefon: 012 403 87 89
012 403 87 95
(faks / abunə ilə bağlı)

«Vergilər» qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş və «Azərbaycan» nəşriyyatında çap olunmuşdur.

Tiraj: 14000

idman

# İlk Avropa Oyunları dünya mediasında...

*«Bakı-2015» ilk Avropa Oyunları başa çatsa da, öz möhtəşəmliyi ilə bir çox dünya ölkələrinin mətbuat orqanları və televiziya kanallarının diqqət mərkəzində qalmaqda davam edir. İdman yarışlarının keçirildiyi arenalar, yaradılan şərait bu ölkələrin media qurumları tərəfindən zaman-zaman işıqlandırılır. Oyunlarda iştirak etmiş əcnəbi idmançılar da öz müsahibələrində paytaxtımızda keçirilən bu mötəbər idman tədbirinin mükəmməl təşkilatçılığına və yerli əhalinin qonaqpərvərliyindən, onlara göstərilən isti münasibətdən ağızdolusu danışırlar.*

*Beləliklə, birinci Avropa Oyunlarının açılış və bağlanış mərasimləri, Oyunların təşkili və ümumiyyətlə, yarışlar barədə bir sıra xarici ölkə mediasının hazırladığı bəzi materialları oxucularımızın diqqətinə çatdırırıq.*



♦ Türkiyə mediası birinci Avropa Oyunları barədə xəbərlərə geniş yer ayırıb. «NTV Spor» kanalının rəsmi internet səhifəsində «Bakıda tarixi açılış» sərlövhəli məqalə yerləşdirilib. Rəsmi yayımçı olan kanal, həmçinin, yarışların gedişindən bəhs edən operativ informasiyalar və gündəlik icmallar təqdim edir. «Haberturk.com» və digər saytlarda da mütəmadi olaraq keçirilən yarışlarla bağlı yazılar yer alıb.

♦ Böyük Britaniyanın gündəlik «London Evening Standard» qəzetində dərc edilmiş geniş məqalədə «Bakı-2015» ilk Avropa Oyunları Əməliyyat Komitəsinin (BEGOC) əməliyyatlar üzrə baş direktoru Saymon Kleqin fikirləri yer alıb. «BBC» telekanalı bu ölkənin komandasının «Bakı-2015» birinci Avropa Oyunlarında qazandığı uğurları geniş işıqlandırıb. Taekvondo üzrə yarışlarda britaniyalı Çarli Meddokdan sonra Ceyd Consun da birinci Avropa Oyunlarının çempionu tituluna sahib olması «BBC» kanalının rəsmi portalında geniş işıqlandırılıb. «Reuters UK» agentliyinin saytında isə Avropa Oyunlarında Azərbaycanın uğurlarından bəhs edən məqalə yerləşdirilib.

♦ «Bakı-2015» ABŞ mediasının da gündəmində olub. Məşhur «Getty Images» foto agentliyinin saytında və «The Washington Post» qəzetinin internet səhifəsində Oyunların açılış mərasimindən çəkilmiş fotoşəkillər yerləşdirilib. «CNN» telekanalının rəsmi internet səhifəsində Bakı şəhərinin heyrətamiz görüntülərini əks etdirən fotoşəkillər yerləşdirilib. «RTTNEWS» saytı birinci Avropa Oyunları ilə bağlı məqalə dərc edib. ABŞ-ın «www.theatlantic.com» internet qəzeti də Oyunlara həsr olunmuş məqalə və fotosessiya yerləşdirib.

♦ İtaliya mətbuatı «Bakı-2015» ilə bağlı silsilə məqalələr yayıb. Yazılarda ilk Avropa Oyunlarına hazırlıq, idmançılar, ölkəmizdə idmanın inkişafı və digər məqamlar barədə məlumatlar yer alır. «Opinione Pubblica», «Avvenire» xəbər saytları Azərbaycanda idmanın inkişafı istiqamətində qəbul olunmuş dövlət proqramları, icra olunan layihələr, keçirilən tədbirlər barədə ətraflı məlumat veriblər. «Corriere della Sera» qəzetinin saytında da Azərbaycanın ilk Avropa Oyunlarına yüksək səviyyədə ev sahibliyi etməsindən bəhs olunub.

♦ Fransa mətbuatında birinci Avropa Oyunları haqqında məqalələr yazılıb və yarışların yüksək səviyyədə təşkil olunduğu qeyd olunub. «liberation.fr» saytında yarışların açılış və bağlanış mərasimlərinin möhtəşəm olduğu bildirilib, vurğulanıb ki, birinci Avropa Oyunları idman sahəsində ilin ən çox gözlənilən hadisələrindən biridir. «Equipe21» televiziyası fransız idmançıların çıxışlarını canlı yayımlamaqla yanaşı, gecə saatlarında digər ölkələrin atletlərinə də yer ayırıb.

♦ Almaniya KİV-ləri də ölkənin milli komandasının Avropa Oyunlarında iştirakı barədə məqalələr hazırlayıb. «Deutsche Welle» media agentliyində «Bakı birinci Avropa Oyunlarının açılışını qeyd edir» sərlövhəli məqalə dərc edilib. «Neues-Deutschland» saytında Oyunlar çərçivəsində avarçəkmə yarışlarının keçirildiyi Mingəçevir şəhəri haqqında məqalə yayılıb.

♦ İspaniyanın Radio və Televiziya Korporasiyasının (RTVE) rəsmi saytında «Bakı-2015» ilk Avropa Oyunları ilə bağlı məlumat verilib. Açılış mərasimində təqdim olunan və Azərbaycanı tərənnüm edən bütün elementlər barədə RTVE tamaşaçılarına ətraflı məlumat verilib.

♦ İsveç mətbuatı da Bakıda keçirilən birinci Avropa Oyunlarını diqqət mərkəzində saxlayıb. Nüfuzlu «Aftonbladet» qəzeti bu ölkənin atletlərinin yarışlarda iştirakından, o cümlədən mötəbər idman tədbirinin yüksək səviyyədə təşkil edilməsindən, atletlər üçün yaradılan gözəl şəraitdən bəhs edib. İsveç avarçəkənlərinin əldə etdikləri müvəffəqiyyətdən yazan müəllif yarışların keçirildiyi Mingəçevir şəhərinin gözəlliyini xüsusi vurğulayıb.

♦ İrlandiyanın irishtimes.com saytının Bakıya həsr etdiyi geniş məqalədə paytaxtımızın Oyunların keçirilməsi ilə bağlı çox böyük iş gördüyünü və bu yarışların Azərbaycanı ölkə hüdudlarından kənarda da tanıtdığını qeyd edib.

♦ Rusiyanın, demək olar ki, əksər media qurumları Avropa Oyunları barədə geniş məqalələr və canlı bağlantılarla oxucu və tamaşaçıları məlumatlandırıb. Məşhur «Rossiya 2» telikanalı isə açılış və bağlanış mərasimlərini canlı yayımlayıb.

♦ Avropa İttifaqının media qurumu və təşkilat tərəfindən maliyyələşdirilən «commonspace.eu» saytında «Bakı-2015» birinci Avropa Oyunları ilə bağlı şərh dərc edilib.

♦ Avstraliyanın video.nyus saytı Azərbaycanda keçirilən Avropa Oyunlarını Bakı Bulvarından izləyən tamaşaçılarla bağlı süjet yerləşdirib.

♦ Niderlandın NOS telekanalı «Bakı-2015» birinci Avropa Oyunlarına geniş diqqət ayırıb.

♦ Lüksemburqun «Gündəlik» qəzetində birinci Avropa Oyunları ilə bağlı məqalə dərc edilib.

«Associated Press» agentliyi «Bakı-2015» birinci Avropa Oyunları ilə bağlı məqalə yayıb.

mozaika

## «Emosional» robotlar populyarlaşır

robototexnika

*İnsanlara daha çox ev işlərində kömək edə biləcək robotlar hər evdə arzulanan texnikadır. Lakin bu meyil, deyəsən, dəyişmək üzrədir. Artıq insanlar müsahibi ilə həmsöhbət olacaq, intellektual sualları cavablandıra biləcək robotlara üstünlük verməyə başlayıblar.*



Bunu Yaponiyada ilk 1000 insanabənzər robotun bir dəqiqədə satılması faktı göstərir.

«Pepper» - insanlarla birgə yaşamaq üçün nəzərdə tutulmuş ilk insanabənzər robotdur. O, nə ev işlərində təmizlik ilə məşğul olur, nə yemək hazırlayır, nə də bu kimi başqa bacarıqlara malik deyil, əvəzində sizinlə söhbət edə, emosiyalarınızı tanıya və ona reaksiya verə bilər, sizinlə birgə yaşaya biləcək sosial robotdur.

Fevral ayında 300 robotun sınaq satışlarında bu robotları əldə etmək istəyənlərin sayı o qədər çox olub ki, şirkət xoşbəxt alıcıları püşkatma yolu ilə seçmək məcburiyyətində qalıb.

«Pepper»in qiyməti təxminən 1600 dollardır. «Softbank» şirkəti hər ay 1000 robotun satışını təşkil etmək niyyətindədir.

## Nobel qardaşları haqqında film

incəsənət

Mədəniyyət və Turizm Nazirliyinin sifarişi ilə C.Cabbarlı adına «Azərbaycanfilm» kinostudiyasında «Nobel qardaşları» kompaniyasının Bakıdakı fəaliyyətindən bəhs edən qısametrajlı film çəkilir.

Kinostudiyadan bildirilib ki, «Postskriptum» adlı ekran əsərinin ssenari müəllifi Ramiz Fətəliyev və Emin Mirabdullayev, rejissoru Emin Mirabdullayev, operatoru Əli Sultan, prodüseri Müşfiq Hətəmovdur.

Filmdə aktyor Azər Aydəmir baş rolu - Robert Nobeli canlandırır. Həmçinin, əməkdar artistlər Ayşad Məmmədov, Eldar Bağırbəyov və digərləri filmdə rol alıblar. Ekran əsəri kiçik qardaş Robert Nobelin Bakıya ilk səyahəti, Bakı nefti ilə tanışlığı və qardaşların şəhərdə bundan sonrakı fəaliyyətini özündə əks etdirir.



## Maqnit yastıqlar üzərində...

rekord

*Yaponiyanın maqnit yastıqlar üzərində hərəkət edən dəmiryol ekspresi saatda 603 kilometr sürətlə hərəkət edib və Ginnesin rekordlar kitabına daxil edilib.*

Ekspresin operatoru «JR Tokai» şirkəti bəyan edib ki, ekspres bu rekordu apreldə, Tokionun qərbində yerləşən Yamanaşi prefekturasında sınaqlar zamanı nümayiş etdirib. Qeyd olunub ki, şirkət həmin texnologiyanın təkmilləşdirilməsi istiqamətində işləri davam etdirəcək.

Operator-şirkət Tokio ilə Naqoya arasında bu ekspresdə sərnişinlərin ilk daşınmasını 2027-ci ildə həyata keçirməyi planlaşdırır.



## Fləşkart ölçüsündə...

texnologiya

*Çinin «Lenovo» şirkəti fləşkart ölçüsündə «IdeaCenter Stick 300» adlı kompüterini təqdim edib. «IdeaCenter Stick 300» qurğusunun işləməsi üçün onu «HDMI» konnektoru ilə təchiz edilmiş monitora qoşmaq, həmçinin simsiz klaviatura və «maus» lazımdır.*

Mikrokompüter dördnüvəli «Intel Atom Z3735F» prosessoru, 2 Gb əməli və 32 Gb daxili yaddaşla təchiz edilib. Qurğu «Windows 8.1» əməliyyat sistemi ilə işləyir və «Wi-Fi 802.11 b/g/n» və «Bluetooth 4.0» standartlarını dəstəkləyir. Daxili dinamikə malik olması onu digər qurğulardan fərqləndirir.

«IdeaCenter Stick 300» qurğusunun iyulda satışa çıxarılması planlaşdırılır.




**Müdriklər deyib ki...**

***«Dünyada heç bir nemət həyatın əvəzi ola bilməz və onu hər cüzi şey üstündə və ədalət pərdəsi altında azad insanlardan almaq olmaz».***

*M.F.Axundzadə (1812-1877)*

